# QARABAĞ AZƏRBAYCANDIR!

Yeni Azərbaycan Partiyası- 30 il

5

# Səs

№ 189 (6630) 15 oktyabr 2022-ci il. Qiyməti 60 qəpik

## İLHAM ƏLİYEV FENOMENİ: Müstəqil dövlət, müstəqil siyasət

8



4



# AZƏRBAYCAN SİZİN SÖZÜNÜZÜ GÖZLƏYİR!

Ziyalıların Ulu Öndər Heydər Əliyevə müraciətindən 30 il ötür

## Neftdən asılılığı necə azalda bilərik?



15

## Ermənistan-Azərbaycan sülh sazişinin imzalanmasına nə mane olur?



11



Məmməd Araz poeziyasının fəlsəfi işığında

6

13



“Paşinyanın sözü və əməlləri bir-birinə uyğun gəlmir”



16

Dostunu öldürüb çamadanda gəzdirdi...



Mənzil alıb-satanlara şad xəbər! - İlk dəfə...

## Açıqlandı: Neymar həbs oluna bilər




16

# "Minsk qrupunun başlıca məqsədi münaqişənin nizamlanması yox, dondurulması idi"

***Dünən Astanada Müstəqil Dövlətlər Birliyi (MDB) Dövlət Başçıları Şurasının iclası keçirilib. Prezident İlham Əliyev iclasda iştirak edib. Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev iclası açıq elan edib. MDB İcraiyyə Komitəsinin sədri - icraçı katibi Sergey Lebedev gündəlikdə duran məsələlər barədə məlumat verib. Azərbaycan Prezidenti İlham Əliyev iclasda çıxış edib.***




*Prezident İlham Əliyev MDB Dövlət Başçıları Şurasının Astanada keçirilən iclasında iştirak edib*




Prezident İlham Əliyev öz çıxışında diqqətə çatdırıb ki, Azərbaycan beynəlxalq hüquqa, BMT-nin Nizamnaməsinə, o cümlədən hər bir ölkənin özünümüdafiə hüququna malik olmasını nəzərdə tutan BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq münaqişəni özü həll edib:

"Mən əvvəlcə bizim regionda yaranan vəziyyətlə bağlı həmkarlarımı məlumatlandırmaq istərdim. Həmkarlarım yaxşı bilirlər ki, Azərbaycanın ərazilərinin erməni silahlı qüvvələri tərəfindən işğalı dövründə mən bu mövzunu MDB çərçivəsində heç vaxt müzakirəyə çıxarmırdım. Çünki münaqişənin nizamlanması mövzusu ilə ATƏT-in Minsk qrupu məşğul olurdu, o, mandata sahib idi. Təəssüf ki, 28 il ərzində Minsk qrupunun nəticəsi sıfra bərabərdir. İndi gördüyü kimi, bu qurumun başlıca məqsədi münaqişənin nizamlanması yox, onun dondurulması idi. Danışıqların aparılması münaqişənin hələ uzun illər həll olunmaması üçün yalnız pərdə idi. Beləliklə, münaqişə həll olunub. Azərbaycan beynəlxalq hüquqa, BMT-nin Nizamnaməsinə, o cümlədən hər bir ölkənin özünümüdafiə hüququna malik olmasını nəzərdə tutan BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq münaqişəni özü həll edib.

Münaqişədən sonrakı vəziyyət müxtəlif cür inkişaf edir. Buna görə də həmkarlarımı son dövrlər ərzində baş verənlərlə bağlı məlumatlandırmaq istərdim. Sentyabrda - demək olar bir ay bundan əvvəl Azərbaycan-Ermənistan sərhədi ərazisində silahlı toqquşmalar baş verdi. Bu silahlı toqquşmaların səbəbləri bəllidir - Azərbaycana münasibətdə terror, ilk növbədə, mina terroru və snayper terroru davam edir. İkinci Qarabağ müharibəsi başa çatandan sonra Azərbaycanın 250-dən çox vətəndaşı əsasən işğal dövründə basdırılan minaların partlaması nəticəsində ya həlak olub, ya da ciddi xəsarət alıb. Eyni zamanda, bizim tərəfimizdən Ermənistan istehsalı olan piyada əleyhinə 1400 mina aşkarlanıb. Bu minalar 2021-ci ildə Laçın rayonu ilə sərhəd ərazidə basdırılıb. Həmçinin Azərbaycanın bir hərbi mövqeyindən digərinə aparan yollar minalanıb. Silahlı toqquşmalar davam edib, aktiv faza maksimum 8 saat çəkib. Bəzilərinin hesab etdiyi kimi, Azərbaycan Ermənistan ərazisini işğal etmək niyyətində olmayıb. Nə bir şəhər, nə də bir kənd işğal olunmayıb. Rusiya tərəfinin vasitəçilik fəaliyyəti nəticəsində, - mən bunu xüsusi vurğulamaq istərdim, - məhz Rusiya tərəfi atəşkəs təklifi ilə çıxış etdi, bəziləri bunu başqa ölkələrə aid edirlər ki, bu da tamamilə əsassızdır. Rusiya tərəfinin vasitəçilik fəaliyyəti nəticəsində silahlı toqquşmalar, artıq dediyim kimi, dayandırıldı.

Oktyabrın 6-da "Avropa siyasi birliyi"nin yeni platforması çərçivəsində Praqada Fransa Prezidenti, Avropa İttifaqı Şurasının Prezidenti, Ermənistanın baş naziri və Azərbaycan Prezidentinin iştirakı ilə dördtərəfli görüş təşkil olundu. Görüşdə bir neçə saat davam edən danışıqlar nəticəsində Ermənistan-Azərbaycan sərhədi yaxınlığında Ermənistan ərazisinə Avropa İttifaqının 40 nəfərdən ibarət mülki missiyasının göndərilməsi barədə qərar qəbul olundu. Sonradan bizə məlum oldu ki, onların sayı 50 nəfər olacaq. Onlar orada azı 2 ay olacaqlar. Bu missiyanın məqsədi, gördüyümüz kimi, tərəflərə sərhədlərin çəkilməsində, delimitasiya ilə bağlı məsələlərin müəyyənləşdirilməsində kömək göstərməkdir. Bu səbəbdən biz buna razılıq verdik. Bu missiyanı Azərbaycan tərəfinə göndərmək barədə də cəhdlər oldu, ancaq bizim tərəfimizdən bu cəhdlər qətiyyətlə rədd edildi. Buna görə də missiya Ermənistan ərazisində, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) məsuliyyət zonasında yerləşəcək. Dünən Avropa nümayəndələrinin birinci qrupu bu missiyanın yerləşdirilməsini müəyyənləşdirmək üçün Ermənistana gedib.

Təəssüf ki, Azərbaycan dördtərəfli görüşün, o cümlədən Fransa Prezidentinin iştirakı ilə keçirilməsinə razılıq verməsinə baxmayaraq, - Fransanın Azərbaycan və Ermənistan arasında münasibətlərə heç bir aidiyyəti yoxdur, bəli, ATƏT-in Minsk qrupunun həmsədri kimi Fransanın vasitəçilik missiyası var idi, lakin Qarabağ münaqişəsi nizamlandığına görə Minsk qrupunun xidmətinə heç bir ehtiyac yox idi, özü də bu xidmətlər, artıq dediyim kimi, əgər belə demək mümkündürsə, faydadan daha çox ziyan gətirən xidmətlər idi, Minsk qrupu heç bir iş görməyib, ərazimizin bir santimetr torpağı belə azad edilməmişdi, - Azərbaycan xoş məram göstərərək, Fransa Prezidentinə bu görüşdə iştirak etməyə icazə verdi. Avropa İttifaqı Şurası Prezidentinin iştirakına gəlincə, bildiyiniz kimi, Brüsseldə artıq bir neçə üçtərəfli görüş keçirilib və prinsipcə, biz Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması işində Avropa İttifaqının səylərini həmişə dəstəkləmişik. Lakin Azərbaycanın nümayiş etdirdiyi xoş mərama baxmayaraq, Praqadakı görüşdən demək olar bir həftə sonra Fransa Prezidenti təhqiramiz, qəbulolunmaz, yalan və təxribat xarakterli bəyanatlarla çıxış etdi. Bu bəyanatlar mətbuatda var, hər kəs onları görə bilər. Bu bəyanatlarda o, Azərbaycanı dəhşətli müharibə törətməkdə günahlandırıb, bununla da faktları manipulyasiya edərək, Fransa və dünya ictimaiyyətini çaşdırmağa səy göstərib. Azərbaycan beynəlxalq səviyyədə tanınan öz ərazisində müharibə aparırdı. Qarabağ bütün dünya tərəfindən Azərbaycanın tərkib hissəsi kimi tanınıb. Biz özünümüdafiə hüququndan istifadə edərək, ərazi bütövlüyümüzü güc hesabına bərpa etdik.

***Ardı Səh. 3***

# “Minsk qrupunun başlıca məqsədi münaqişənin nizamlanması yox, dondurulması idi”

**Əvvəli-Səh-2**

Daha sonra bəyan edildi ki, Fransa heç vaxt Ermənistanı atmayacaq. Ancaq, necə deyərlər, bu, ikitərəfli münasibətlər məsələsidir. Həmçinin Rusiya Federasiyasının ünvanına ”Rusiya Azərbaycan oyununu oynadı” kimi qərəzli bəyanatlar səsləndirildi. Böyük ölkənin Prezidentinə küçə leksikonundan istifadə etməyin nə dərəcədə siyasi nəzakətə uyğun olmasını, qoy, Fransa ictimaiyyəti müəyyən etsin. Biz isə öz tərəfimizdən belə bəyanatları qəti surətdə pisləyirik, rədd edirik və bundan sonra Fransa hökumətinin belə münasibəti çərçivəsində Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması işində Fransanın hər hansı rol oynamasının heç bir mümkünlüyünü görmürük.

***"Fransanın Azərbaycan və Ermənistan arasında münasibətlərə heç bir aidiyyatı yoxdur"***

Bundan başqa, Fransanın xarici işlər naziri Azərbaycanın əleyhinə yalan bəyanatlar verib, Fransa Senatı və aşağı palata İkinci Qarabağ müharibəsi dövründə qondarma ”Dağlıq Qarabağ”ı tanıyan qətnamələr qəbul ediblər. Baxmayaraq ki, hətta Ermənistan özü onu tanımayıb. Bizə məlumdur ki, noyabrın ortalarına Fransa Senatında Azərbaycan əleyhinə növbəti qətnamə hazırlanır. Beləliklə, təəssüf ki, Fransanın indiki rəhbərliyi əvvəlkilərdən fərqli olaraq, - mənim isə Prezident Şirakla da, Prezident Sarkozi ilə də, Prezident Ollandla da kifayət qədər sıx ünsiyyət qurmaq imkanım var idi və münasibətlər kifayət qədər ölçülüb-biçilmiş, kifayət qədər mehriban idi və Fransada müəyyən erməni diasporu amilinə baxmayaraq, biz həmişə Fransanın əvvəlki prezidentlərinin fəaliyyətini balanslaşdırılmış qəbul edirdik, - mahiyyət etibarilə bütün bunların üstündən xətt çəkdi. Buna görə də istərdim ki, həmkarlarımı bu vəziyyət barədə məlumatlandırım.

Daha sonra Azərbaycanın Parisdəki səfirliyinə iki dəfə basqın edildi. Özü də birinci hücumdan sonra Fransa Prezidenti telefonda mənə vəd verdi ki, bunun təkrarlanmaması məqsədilə tədbir görüləcək. Lakin bunun, yumşaq desək, doğru olmadığı ortaya çıxdı. Birinci vandalizm aktından və səfirliyin binasına soxulmaq cəhdindən sonra Azərbaycan səfirliyinin qarşısında qoyulmuş mühafizə götürüldü. Çox güman ki, bu, erməni tərəfi ilə razılaşdırılıb. Mühafizə götürülən kimi ikinci basqın cəhdi oldu, təhqiramiz yazılar oldu, Azərbaycan səfirliyinə hücum edən özündən çıxmış radikalların izdihamı oldu. Bu, qətiyyən yolverilməzdir və bütün diplomatik konvensiyaların pozulması deməkdir.

Deməliyəm ki, həmçinin Ermənistan tərəfindən Azərbaycanın Livandakı və ABŞ-dakı səfirliklərinə qarşı təxribatlar törədilib. Sonuncu təcavüz aktının, terrorun da - Azərbaycanın ABŞ-dakı səfirliyinin avtomobilinə odlu silahdan atəş açılmasının görüntüləri var. Biz ABŞ-ın, Fransanın və Azərbaycanın terrora məruz qala biləcək diplomatik missiyasının mövcud olduğu digər ölkələrin hökumətlərini məsuliyyətli olmağa və beynəlxalq öhdəliklərini yerinə yetirməyə çağırırıq. Bizdə heç bir şübhə yoxdur ki, terror və vandalizm aktları Ermənistan tərəfindən təşkil edilib. Mən nə üçün bunu deyirəm? Çünki 1990-cı illərdə erməni xüsusi xidmət orqanları tərəfindən 32 terror aktı - metroda, avtobuslarda, bərələrdə və qatarlarda partlayışlar törədilib. Bu terror aktları nəticəsində iki mindən çox dinc azərbaycanlı həlak olub.”




***"Ermənistan noyabr Bəyanatının iki vacib bəndini icra etməsə, bizim adekvat tədbir görməkdən başqa seçimimiz qalmayacaq"***

Dövlətimizin başçısı qeyd edib ki, indi biz azad edilmiş ərazilərin bərpası ilə fəal məşğul oluruq. Hər şey dağıdılıb, görüntülər dərc edilib, arzu edənlər tanış ola bilərlər:




”On min kvadratkilometr ərazidə demək olar bir salamat bina qalmayıb, 67 məsciddən 65-i dağıdılıb. Müsəlmanların müqəddəs yerlərinin təhqir edilməsi, məscidlərdə donuz və inək saxlanılmasına dair görüntüləri internetdən də əldə etmək olar. Bütün bunlar Azərbaycan xalqına və bütün müsəlman dünyasına qarşı ifrat dərəcədə nifrətdən xəbər verir. Bunu ancaq belə başa düşmək olar.

Daha bir məqamı da qeyd etmək istərdim ki, 2020-ci ilin noyabrında Rusiya Federasiyasının vasitəçiliyi ilə üçtərəfli Bəyanat qəbul edilib. Azərbaycan Bəyanatın bütün müddəalarını yerinə yetirir, o cümlədən Ermənistandan Qarabağa maneəsiz girişi təmin edir. Ermənistan Bəyanatın özünə aid hissəsini icra etmir. Məhz Azərbaycanın əsas hissəsindən Naxçıvan Muxtar Respublikasına maneəsiz girişi təmin etmir, halbuki bu, onun hüquqi öhdəliyidir, həmçinin Azərbaycan ərazisindən erməni silahlı qüvvələrini indiyədək çıxarmayıb. Biz hələ ki, səbir nümayiş etdiririk, lakin bunun da bir həddi var. 2020-ci ilin noyabr Bəyanatının bu iki vacib bəndi icra edilməsə, bizim adekvat tədbir görməkdən başqa seçimimiz qalmayacaq.

Sonda Qarabağ ermənilərinin taleyi barədə. Praqa görüşündə bu məsələ üzrə bizim fikir mübadiləmiz oldu. Bizim mövqeyimiz aydındır, dəqiqdir. Qarabağ Azərbaycandır. Qarabağın erməni əhalisinin hüquqları və təhlükəsizliyi Azərbaycan Konstitusiyasına uyğun olaraq təmin ediləcək. Biz öz daxili məsələlərimizi heç bir tərəflə müzakirə etməyə hazırlaşmırıq. Praqa görüşünün yekunlarına əsasən də başa düşdüyüm qədər, bu mövzu dördtərəfli görüşün bütün iştirakçıları arasında hər hansı fərqli şəkildə qəbul edilməyib.”

Sonra MDB Dövlət Başçıları Şurasının iclası işini geniş tərkibdə davam etdirib.



# AZƏRBAYCAN SİZİN SÖZÜNÜZÜ GÖZLƏYİR!

## *Ziyalıların Ulu Öndər Heydər Əliyevə müraciətindən 30 il ötür*

***Möhtərəm HEYDƏR BƏY! Hamımız görürük ki, respublikamızın, xalqımızın vəziyyəti gündən-günə ağırlaşır. Azərbaycan sözün əsil mənasında siyasi, iqtisadi, mənəvi böhran keçirir. Bunun da əsas səbəbi son illər respublikada mövcud olan və getdikcə daha da güclənən hakimiyyət böhranıdır. Ali hakimiyyət və idarəetmə orqanları "Konstitusiyaya zidd, real vəziyyətə uyğun" fəaliyyət göstərməklə, əslində iflic vəziyyətinə düşmüşdür. Bir çox dövlət orqanları heç bir hüquqi əsas olmadan yaradılıb fəaliyyət göstərir.***

Bir sözlə, mövcud iqtidar ictimi-siyasi gedişatlara tam nəzarət edə bilmir. Cəmiyyət obyektiv qanunauyğunluqlardan daha çox subyektiv mülahizələrə əsasən idarə olunur. Ən dəhşətlisi odur ki, siyasi və iqtisadi sistemdə əsaslı islahatlar aparılmır. Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya aktında təsbit olunmuş hakimiyyət bölgüsü havadan asılı qalmış, hüquqi dövlətin yaradılması yolunda real addımlar atılmamışdır. İqtidarın idarəetmə səriştəsi, təcrübəsi, bacarığı olmayanda zora əl atması təbiidir. Qəribə burasındadır ki, prezidentdən tutmuş respublikanın müxtəlif vəzifəli şəxsləri dəfələrlə öz müsahibələrində bildiriblər ki, artıq hakimiyyəti bizim əlimizdən heç kəs ala bilməz, çünki ordu və polis bizə xidmət edir.

Dünənə kimi küçə, meydanlarda səhərdən axşama qədər demokratiyadan danışanlar görünür demokratiyanın mahiyyətinin nə olduğunu dərk etmirlər. Əsil demokratik ölkələrdə ordu, polis, başqa inzibati orqanlar siyasətdən kənardır və bütün bu qüvvələr hakimiyyətdə olanlara deyil, xalqa xidmət edirlər. Rəhbərliyin siyasi naşılığından, idarəetmə səriştəsizliyindən, hakimiyyət hərisliyindən həm daxildən, həm də xaricdən müəyyən qüvvələr öz mənafeləri üçün məharətlə istifadə edirlər. Əgər dünənə qədər Azərbaycanın sərvətləri bir istiqamətə daşınıb aparılırdısa, indi var-dövlətimiz bir neçə səmtə axıdılır. Bir sıra şərq ölkələrindən qovulmuş Qərb inhisarları indi asanlıqla çoxdan həsrətində olduqları Bakı neftini ələ keçirirlər. Belə gedərsə biz siyasi əsarətdən qurtarmamış, tezliklə iqtisadi əsarətə məruz qalacağıq. Çünki respublikanın olan-qalan iqtisadi potensialı sürətlə dağılır, təbii sərvətlərimiz talan edilir.

Vəziyyətin ağırlığından, çıxılmazlığından, həyatın qeyri-sabitliyindən, gələcəyə ümidsizlikdən respublikanı yüzlərlə ziyalı-yüksək ixtisaslı kadrlar tərk edir. Sözsüz ki, ən ağır zərbə geniş xalq kütləsinə, aşağı təbəqəyə dəyir. Hadisələrin bu cür inkişafı göstərir ki, yaxın gələcəkdə sosial-ədalətdən heç əsər əlamət də qalmayacaq. Halbuki uzun illər boyu imperiya boyunduruğu və totalitar rejim altında inləyən xalqımız bu gün demokratik qanunlara əsaslanan vətəndaş cəmiyyəti qurmaq arzusu ilə yaşayır.

Yaşadığımız dövrün səciyyəvi cəhətlərinin, cəmiyyətin inkişaf meyillərinin iqtidar tərəfindən düzgün qiymətləndirilməməsi fərsiz kadr siyasəti, idarəetmə səriştəsi olmayan təsadüfi adamların dövlət strukturlarında yüksək vəzifələrə təyin edilməsi, respublikamızın onsuz da ağır olan durumunu daha da dərinləşdirir.

Xalqımıza qarşı törədilən ən böyük dəhşətli cinayətləri - 20 yanvar, Xocalı, Şuşa, Laçın və digər faciələri törədənlər hələ cəzalarına çatmayıblar. Axırı görünməyən, minlərlə insan ömrü aparan, saysız-hesabsız ailələri doğma yurdlarından didərgin salan Qarabağ fitnəkarlığı bir çoxları üçün siyasi oyunbazlığa, məqam, vəzifə qamarlamaq girəvəsinə, qazanc mənbəyinə dönübdür. Azərbaycanda "sürətli artım" ancaq yeni-yeni partiyaların və onların liderlərinin meydana çıxması sahəsindədir. Bu siyasi partiyaların sayı gündən-günə çoxalsa da, respublikada ictimai-siyasi həmrəylik yaratmaq yolunda əməli iş görülmür, siyasi vakuum mövcuddur. Çünki bu siyasi partiyaların rəhbərləri arasında, sözün əsil mənasında geniş xalq kütləsinin dərin inam və etimadını qazanmış, öz ətrafında müxtəlif zümrələrdən olan adamları birləşdirə biləcək beynəlxalq nüfuzlu və respublika həyatının bütün sahələrindən tam, geniş məlumatı olan güclü lider yoxdur.

Möhtərəm HEYDƏR BƏY! İndiki vəziyyətdə bu çətin, məsuliyyətli işi respublikada öz üzərinə götürməyə qadir yeganə şəxs Sizsiniz! Uzun illər əldə etdiyiniz dövlət quruculuğu təcrübələrinizə əsaslanaraq, Siz, qısa müddətdə Azərbaycanda geniş xalq kütləsini əhatə eləyəcək çox böyük, güclü, nüfuzlu və işlək bir partiya yaratmağa qadirsiniz. Buna görə də Azərbaycanın demək olar ki, bütün bölgələrində aparılan ictimai rəy sorğularının nəticələrinə və bizim təşkilat komitəsinə daxil olan minlərlə şifahi və yazılı vətəndaş təkliflərinə əsaslanaraq belə bir qənaətə gəlirik ki, yaratmaq istədiyimiz Yeni Azərbaycan Partiyasına bu gün rəhbərlik etməyə qadir olan yeganə mütləq lider Siz ola bilərsiniz və ya yalnız bu halda yaranmaqda olan partiya öz qarşısına qoyduğu məqsədə çatar, respublikanın bütün zümrələrdən olan xalq kütləsini öz ətrafında birləşdirərək Azərbaycanın siyasi, iqtisadi həyatında mövcud olan boşluğu dolduracaq, dövlət quruculuğu işlərində öz layiqli töhfəsini verə biləcək. Əminik ki, Yeni Azərbaycan Partiyası müdrik ağsaqqalımız Heydər Əliyevin ətrafında birləşəcək dərin zəkalı, təmiz əxlaqlı, yüksək mədəniyyətli, müstəqil düşüncəli, milli qürurlu peşəkar insanların siyasi partiyasına çevriləcəkdir. Əgər bu partiyanın bünövrəsini Sizin kimi güclü dövlət xadimi qoyarsa, o uzun illər xalqımızın bir neçə nəsli üçün də siyasi yetkinlik məktəbi olar. Biz Yeni Azərbaycan Partiyasını yeni düşüncə tərzli insanların Sizin ətrafınızda sıx birləşdiyi mütəşəkkil, güclü aparıcı qüvvəyə malik bir partiya kimi görürük. İnanırıq ki, Azərbaycanımızın bugünü, sabahı naminə başqa partiya, qurum və cəmiyyətlərin vətənpərvər üzvləri də həlledici anda məhz bu partiyanın mövqeyində dayanacaqlar. Yeni qüvvələrin öncülü, aparıcısı Sizin kimi şəxsiyyət olarsa, tezliklə müstəqil respublikamızın inkişaf istiqamətləri həm müəyyənləşdiriləр, həm də uğurlu addımlar atılar.

Siz bu gün siyasi, iqtisadi, hərbi və mənəvi blokadada olan Naxçıvan Muxtar Respublikasını da məhz öz şəxsi nüfuzunuz və uzaqgörən diplomatik səriştənizlə qoruyub saxlayır və idarə edirsiniz. Bütün çətinliklərə baxmayaraq, hələ Baltik respublikalarında belə qalan rus ordusunun Naxçıvandakı hissələrini Siz çox bacarıqla, qaydaqanunla yola saldınız. Qardaş Türkiyə və İranın köməyi ilə Naxçıvan əhalisini dözülməz vəziyyətdən çıxarırsınız. İstərdik ki, bu işləri bütün Azərbaycan üçün görəsiniz.

HEYDƏR Bəy! Bizim bu müraciətimizə minlərlə Azərbaycan vətəndaşı məmnuniyyətlə qoşulmağa hazırdır. Hələlik isə ilk addım olaraq bunu bir qrup ziyalılar adından biz edirik. Biz həm öz, həm də on minlərlə respublika əhalisi adından Sizdən xahiş edirik ki, yaradılmaqda olan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir.

Azərbaycan Respublikası EA-nın akademikləri - Ziya Bünyadov, Fərəməz Maqsudov, heykəltaraşlıq akademiyasının akademiki - Ömər Eldarov, Azərbaycan EA-nın müxbir üzvləri - İqrar Əliyev, Kərim Kərimov, Məmmədtağı Cəfərov, Sabir Hacıyev; Xəlil Rza Ulutürk - xalq şairi; Sirus Təbrizli - yazıçı-publisist; Azərbaycan Respublikasının xalq deputatları - Zeynəb Xanlarova xalq artisti, Əli Ömərov, Eldar İbrahimov, Mikail Zabelin, Əlfəddin Abdullayev; professorlar: - Murtuz Ələsgərov, - əməkdar hüquqşünas; Əkbər Bayramov - əməkdar elm xadimi; Zahid Qaralov - əməkdar müəllim; Həsən Quliyev, - Adil Qasımov, Əjdər İsmayılov, Fikrət İsmayılov - respublika dövlət mükafatı laureatı, Şahlar Əsgərov, Mübariz Əhmədov, Əli Nuriyev, Ədalət Fərəcov, Həsən Mirzəyev, Zahid Xəlilov, Vilayət Əliyev, Abbas Səmədov; Ağababa Mahmudov, Şəmistan Mikayılov, Səfyar Musayev, Əsədulla Qurbanov, Musa İlyasov, Tələt Qayıbov, Məmməd Məmmədov, Rafiq Əmənzadə, Lalə Hacıyeva, Eldar Abbasov, Əli İnsanov, Fuad İsmayılov, Əlişir Musayev, Hüsü Kərimov, Rafiq Məmmədhəsənov, Məmməd Nəsirov, İbrahim İsayev, Faiq Cəfərov, Sudef İmamverdiyev; Liliya Luqovaya - dosent, əməkdar hakim; elmlər doktorları - Hacıbala Abutalıbov, Novruz Quliyev, Əmir Mərdanov; dosentlər: - Sabir Xəlilov, Pənah Mahmudov, İsgəndər Quliyev, Zakir Sərdarov, Əli Əhmədov, Əli Nağıyev, Maqsud Nəcəfov, Heydər Hüseynov, Nəbi Əsgərov, Allahverdi Hacıyev Tofiq Hüseynov, Məmməd Məmmədov, Musa Heydərov; Hacı Hacıyev - elmlər namizədi, "Qaraçöp" xeyriyyə cəmiyyətinin sədri; elmlər namizədləri: - Nəzir Əhmədov, Allahyar Hüseynov, İbrahim Əzizov, Aydın Əhmədzadə, Vidadi Acalov, Səbirə Dünyamalıyeva; Georii Savoskin - "Sodrujestvo" cəmiyyətinin üzvü, Lyudviq Muradov - "Azərbaycan-Rusiya" cəmiyyətinin məsul katibi, Rəfael Allahverdiyev - "Azərbaycan-Rusiya" cəmiyyətinin vitse-prezidenti, Asif Cahangirov - BXTŞ-nin müdiri, Rafiq Qasımov - "Azərelektroterm"in baş direktor müavini, Kərim Kərimov - Bakı Kondinsioner zavodunun şöbə müdiri, Munis Bayramov - Azərbaycan "Əlillər" cəmiyyəti sədrinin köməkçisi, Möhsün Möhsünov - yazıçı, jurnalist, Ağabəy Əsgərov - elmlər namizədi, "Səs" qəzetinin baş redaktoru, Vüqar Rəhimzadə - "İki Sahil" qəzetinin baş redaktoru, Rizvan Cəbiyev - "Naxçıvan" qəzetinin baş redaktoru, Ariz Abduləliyev - "Axtarış" qəzetinin baş redaktoru, Əziz Axundov - "Gənc müəllim" qəzetinin redaktoru, Mirzə Əsgərov - "Real" agentliyinin direktoru, Xeyrəddin Qoca - "Açıq söz" qəzetinin redaktor müavini, jurnalistlər: Səlahəddin Quliyev, Ziya Paşa, Vüqar İsmayılov Tahir Məmmədov.

**"Səs" qəzeti, 16 oktyabr 1992-ci il, № 43 (72)**

# Yeni Azərbaycan Partiyası- 30 il

## Hakim partiya "Güclü dövlət, yüksək rifah" prinsipinə söykənərək yeni hədəflərin gerçəkləşməsinə öz töhfələrini verir

***Bu gün Yeni Azərbaycan Partiyasının yaranmasının 30-cu ildönümünü tarixi ədalətin bərpa olunduğu, haqq savaşımızda qələbə qazandığımız - Qarabağ Azərbaycanındır!, Qarabağ Azərbaycandır! NİDA!-sının qoyulduğu tarixi günlər ərəfəsində qeyd edirik. Azərbaycan Prezidenti, Ali Baş Komandan, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin düşmən tapdağı altında qalan torpaqlarımızı işğaldan azad etməsi bütün bəşəriyyətə ölkəmizin gücünün, qüdrətinin daha bir nümayişi oldu.***

Azərbaycan bütün dünyaya göstərdi ki, onun savaşı haqq savaşıdır. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun sentyabrın 27-dən başladığı zəfər yürüşü 44 gün ərzində 30 ilin həsrətinə son qoydu, avantürist Ermənistanın təcavüzkar silahlı qüvvələrini darmadağın etdi, işğal altında qalan torpaqlarımızı əsl sahibinə qaytardı.Və bu gün ən maraqlı məqam odur ki, Yeni Azərbaycan Partiyasının yaranmasının tarixi Azərbaycanın müstəqillik dövrünün tarixi ilə, demək olar ki, üst-üstə düşür. Və bu tarixin ardınca isə İkinci Qarabağ müharibəsinin şanlı qələbə tarixidir. Bu böyük qələbəni bizə Müzəffər Ali Baş Komandanımızın misilsiz cəsarəti və rəşadətli Ordumuz nəsib etdi. Böyük qələbəni al qanı ilə yazan şəhidlərimizin intiqamının alınması ilə əldə edilən zəfəri, qalibiyyəti Azərbaycan xalqına bəxş etməklə Prezident İlham Əliyev həm də həyatını Azərbaycana həsr edən, "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" - deyən Ulu Öndərin arzusunu reallaşdırdı. "Mən bu gün ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!" Bu gün Ulu Öndərimiz Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyasının yaranması ildönümünü tarixi bir anlarda- Qarabağımızın, Azərbaycanımızın, Ali Baş Komandanımız, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin diplomatik siyasəti, Müzəffər Ordumuzunu, rəşadətli əsgər və zabitlərimizin Qələbəsi günündə qeyd edirik. Ona görə də deyirik - Yeni Azərbaycan Partiyası, ildönümün mübarək! Qarabağ Azərbaycandır! Gözün aydın, Azərbaycan!

### Tarixi zərurətdən yaranan - YAP

Noyabrın 21-də yaranmasının 30-cu ildönümü tamam olan Yeni Azərbaycan Partiyasının cəmiyyətdə alternativsiz siyasi qüvvə kimi qəbul olunması onun ötən illərdə hər bir fərdin arzu və istəklərinin təminatçısına çevrilməsi ilə şərtlənir. Bu mənada YAP-ın növbəti ildönümü təkcə partiyamızın çoxsaylı üzvləri üçün deyil, ümumilikdə Azərbaycanın hər bir vətəndaşı üçün son dərəcə əlamətdardır. Xalqın taleyində müstəsna rol oynayan, Azərbaycanı xaos və anarxiyadan, vətəndaş müharibəsindən, iqtisadi tənəzzüldən, bir sözlə, dövlətçiliyi itirilməsi təhlükəsindən xilas edib davamlı sabitlik, tərəqqi və iqtisadi yüksəliş yoluna çıxaran bir siyasi qüvvənin - Yeni Azərbaycan Partiyasının yaranmasının otuzuncu ildönümü ölkəmizin hər bir guşəsində təntənəli şəkildə qeyd olunur. Çünki Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında formalaşaraq siyasi həyata vəsiqə almış Yeni Azərbaycan Partiyası ötən müddət ərzində milli birliyin, vətəndaş həmrəyliyinin, sabitlik və tərəqqinin təminatçısı qismində çıxış etmişdir. Azərbaycanın son illərdə keçdiyi mürəkkəb və ziddiyyətli yola nəzər salarkən YAP-ın xalqın və dövlətin taleyində mühüm rol oynayan partiya olduğu bir daha təsdiqini tapır.

### YAP-a Ulu Öndər Heydər Əliyev kimi dünya şöhrətli LİDERİN Sədrlik etməsi partiyanın cəmiyyətdə böyük siyasi nüfuza malik olmasını şərtləndirirdi

Təsadüfi deyildi ki, o illərdə Heydər Əliyevin Azərbaycan Prezidenti seçilməsinin əngəllənməsi üçün Kostitusiyaya yaş senzi ilə bağlı qondarma maddə daxil edilmişdi. 1992-ci ilin aprel ayında xalqın iradəsinin ziddinə qəbul edilmiş bu antidemokratik addıma etiraz olaraq müxtəlif aksiyalar, imzatoplama kampaniyaları keçirilirdi. Ziyalılar, sadə insanlar Naxçıvan Muxtar Respublikasına üz tutaraq 1992-ci il oktyabr ayının 16-da Ulu Öndər Heydər Əliyevə Yeni Azərbaycan Partiyasının yaradılması xahişi ilə müraciət etdilər. Oktyabrın 24-də Ulu Öndərin ziyalıların müraciətinə məktubla verdiyi müsbət cavab Heydər Əliyevin yaranmış vəziyyətdə böyük məsuliyyəti üzərinə götürməkdən çəkinməyən, cəsarətli və qətiyyətli lider olduğunu bir daha təsdiqlədi. Qeyd edək ki, müraciətlər "SƏS" qəzetində dərc olundu. Ulu Öndər Heydər Əliyevin Azərbaycanın xilası naminə YAP-a rəhbərlik etməyə razılıq verməsi onun böyük siyasətə qayıdışının əsasını qoydu. 1992-ci il noyabrın 21-də partiyanın təsis qurultayı keçirildi. AXC hakimiyyətinin ümummilli liderin Bakıya gəlməsinə ciddi manelər yaratması ucbatından partiyanı yaratmaq istəyən insanların bir hissəsi - 550 nəfərdən ibarət təşəbbüs qrupu Naxçıvana gedərək təsis konfransını orada keçirməyə nail oldu. Təsis konfransı Yeni Azərbaycan Partiyasının yaradılması haqqında qərarı, partiyanın proqram və nizamnaməsini qəbul etdi, Heydər Əliyev yekdilliklə partiyanın Sədri seçildi. YAP-ın qısa müddətdə ölkənin siyasi sistemində aparıcı təşkilata çevriləcəyi, onun ətrafında toplaşmış intellektual potensialın xalqımızın ümummilli problemlərinin həllində mühüm faktorlardan biri olacağı aksiom idi. Bir sıra səbəblər bu qənaətə gəlməyə ciddi əsaslar yaradırdı. Çünki YAP-a Heydər Əliyev kimi dünya şöhrətli LİDERİN sədrlik etməsi partiyanın cəmiyyətdə böyük siyasi nüfuza malik olmasını şərtləndirirdi. İkincisi, ölkəmizin böyük nüfuza və hörmətə malik yüksək intellekt sahibləri partiya sıralarında birləşmişdi. Üçüncüsü, partiya Azərbaycanın bütün regionlarını təmsil edən ciddi sosial bazaya əsaslanırdı. Ən nəhayət, Yeni Azərbaycan Partiyasının siyasi fəaliyyətinin ictimai rəydə doğurduğu müsbət reaksiya onun cəmiyyətə təqdim etdiyi ideologiyanın cəlbediciliyində özünü göstərirdi.

### Sabitlik və inkişafın ideoloji istinadgahları

YAP bu gün cəmiyyətdə böyük nüfuza malikdir. Partiyanın proqramında irəli sürülmüş əsas vəzifələr - dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlətin qurulması, vətəndaşların dinc və firavan həyatının təmin edilməsi xalqımızı tam qane edir. Partiya məfkurəsinin əsasını təşkil edən müstəqil dövlətçilik, qanunçuluq, azərbaycançılıq, yaradıcı təkamül, vətəndaş həmrəyliyi və sosial ədalət prinsipləri YAP-ın qarşısında duran vəzifələrin həyata keçirilməsinin ideya təminatı olaraq mahiyyətcə Azərbaycanın siyasi gələcəyinin ideya bazasına çevrilmişdir. Bütün bunların fonunda YAP-ın 30 ildə ölkənin siyasi sistemində aparıcı təşkilata çevrildiyi, onun malik olduğu potensialın respublikanın problemlərinin həllində mühüm faktorlardan biri kimi çıxış etdiyi təkzibolunmaz həqiqətdir. YAP-a Cənab İlham Əliyev kimi güclü siyasi Liderin rəhbərlik etməsi partiyanın nəinki daxildə, eləcə də respublikamızdan kənarda güclü və nüfuzlu siyasi qüvvə kimi qəbul olunmasını təmin edir və YAP-ın siyasi fəaliyyətinin ictimai rəydə doğurduğu müsbət reaksiya onun cəmiyyətə təqdim etdiyi ideologiyanın cəlbediciliyində özünü göstərir. Partiyanın qarşıya qoyduğu məqsədlər bütün dövrlərdə zamanla səsləşdiyindən, ictimaiyyətin böyük diqqətinə, marağına səbəb olur. Hakim partiya məhz ictimai maraqları mütəşəkkil şəkildə realizə etməklə ölkə vətəndaşlarının siyasi istinadgahına çevrilməyə nail olmuşdur. Ölkənin xüsusən də son illər əldə etdiyi böyük uğurlar YAP kimi nüfuzlu partiyanın hakimiyyət Olimpində qalması və daha da möhkəmlənməsi yolunda bütün siyasi baryerləri aradan qaldırır.Bu gün 30 il şərəfli yol keçən qələbələr partiyası olan Yeni Azərbaycan Partiyası öz sıralarında 760 mindən çox insanı birləşdirir. Azərbaycanın müstəqillik tarixində qazandığı hər bir uğurunda Yeni Azərbaycan Partiyasının öz dəst-xətti, rolu vardır. Yeni Azərbaycan Partiyası fəaliyyətinin ilk günlərindən bütün xalqın partiyası oldu.

Dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq özünü Azərbaycana bağlı sayan hər kəs bu partiyada öz yerini gördü. Onun düşüncələrinə, mövqeyinə göstərilən rəğbəti duydu, bu partiyanın arzularındakı siyasi təsisat olduğunu fərq etdi. Yarandıqdan cəmi 7 ay sonra hakim partiyaya çevrildi. Bu hadisənin özü Ulu Öndər Heydər Əliyev şəxsiyyətinə inamı ifadə etməklə yanaşı, eyni zamanda, partiyanın yaranmasında ifadə olunan tarixi zərurəti və partiyanın yaranması faktına tarixin özünün çox qısa bir zaman keçdikdən sonra haqq qazandırmasını əks etdirirdi. Yeni Azərbaycan Partiyası fəaliyyətinin ilk günündən özünə aydın vəzifələr müəyyənləşdirdi: dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlətin qurulması, vətəndaşların dinc və firavan həyatının təmin edilməsi. Və bunlar təkcə proqram vəzifələri olaraq kağız üzərində qalmadı. Yeni Azərbaycan Partiyası təmsilçilərindən formalaşmış iqtidar komandası xalqımızın ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirərək bu gün ölkəmizi tarixinin ən böyük nailiyyətlərinə yetirmiş Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında bu vəzifələrin hər biri üzrə möhtəşəm nəticələr qazandı.

Bəli, Yeni Azərbaycan Partiyası 30 il şərəfli yol keçərək monolitliyini qorudu, gücləndi, öz üstünlüyü, parlaq qələbələri ilə heç bir seçkidə rəqib tanımadı. Yeni Azərbaycan Partiyasının seçkilərdə qazandığı qələbələr bu partiyanın cəmiyyətdəki yerinin möhkəmliyini, dövlətçiliyimizin gücləndirilməsi istiqamətində həyata keçirilən siyasətə xalq dəstəyini, insanların bu təşkilata yüksək etimadını göstərir. Bütün iştirak etdiyi seçkilərdə Yeni Azərbaycan Partiyası qələbə qazanaraq bir daha ölkə vətəndaşlarının Azərbaycan reallığına verdiyi qiymət və Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasətə inamın ifadəsidir. Bu, həm də hər bir vətəndaşın Prezidenti olduğunun göstəricisi, Azərbaycanın hərtərəfli inkişafı, verilən hər bir vədin konkret əməli işdə öz təsdiqini tapması ildən-ilə xalq-iqtidar birliyini göstəricisidir. Məhz bu gün sevinirik ki, Ulu Öndər Heydər Əliyevin ideyaları yaşayır, qalib gəlir. Azərbaycan Prezidenti, Ali Baş Komandan, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən bu ölməz amallar sədaqətlə, cəsarətlə daha müvəffəqiyyətlə həyata keçirilir. Necə ki, Yeni Azərbaycan Partiyasının yaradıcısı, Azərbaycan xalqının xilaskarı ulu öndərimiz Heydər Əliyev demişdir: "Yeni Azərbaycan Partiyası dünənin, bu günün, gələcəyin partiyasıdır".

Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev martın 5-də partiyanın keçirilən VII qurultayında çıxışı zamanı bir çox məsələlər toxunaraq Partiyamızın VII qurultayı ölkəmizin ictimai-siyasi həyatında önəmli hadisə olduğunu bildirmişdir. Azərbaycan Prezidenti İlham Əliyev Yeni Azərbaycan Partiyasının VI qurultayından üç il ötdüyünü və bu illər ərzində böyük nailiyyətlər və qələbələr əldə olunduğunu deyib: "Bu illər ölkəmiz üçün, bölgəmiz üçün həlledici illər olmuşdur. Üç il ərzində ölkə həyatında bir çox önəmli hadisələr baş vermişdir. Təbii ki, onların arasında ən önəmlisi ərazi bütövlüyümüzün bərpa edilməsi, Vətən müharibəsində parlaq Qələbənin qazanılmasıdır. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, tarixi ədaləti bərpa etdi, işğalçıları əzəli torpaqlarımızdan qovdu və beləliklə, tarixi ədalət bərpa olundu. Bizim şanlı Qələbəmiz qürur mənbəyimizdir".

Bu yerdə Prezident İlham Əliyevin 2003-cü ildə keçirilən andiçmə mərasimində söylədiyi bu fikirləri bir daha yada salmaq yerinə düşər: "Bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün, ən başlıcası, ölkədə Ümummilli Lider Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən, mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm".

Bir sözlə, bu gün Ulu Öndərimiz Heydər Əliyevin Azərbaycan xalqına bəxş etdiyi unudulmaz töhfələrlə, müstəqilliyimizlə, bu günümüzlə inkişafımızla, xoşbəxt həyatımızla fəxr edir və gələcəyimiz uğurunda düşünürük. Sevinirik ki, Ulu Öndər Heydər Əliyevin ideyaları yaşayır, qalib gəlir. Azərbaycan Prezidenti, Ali Baş Komandan, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən bu ölməz amallar sədaqətlə, cəsarətlə daha müvəffəqiyyətlə həyata keçirilir. Hər bir Azərbaycan vətəndaşı Vətənini, xalqını sevən hər bir kəs Yeni Azərbaycan Partiyasını, Ulu Öndər Heydər Əliyevə və böyük rəhbərin sədaqətli davamçısı Prezidentimiz İlham Əliyevlə qürur duymağa haqlıdır. Belə bir gündə uğurlarımızla sevinməyə, öyünməyə dəyər.

**RƏFİQƏ KAMALQIZI**

# Məmməd Araz poeziyasının fəlsəfi işığında



**Bir zərrənin işığına milyonlar şərik,**
**Dünya sənin, dünya mənim, dünya heç kimin...**

Bəşəri meyarlar baxımından fəlsəfi düşüncələrə yol açan şair Məmməd Araz Azərbaycan poeziyasında sənəti şaxələndirən, ona yeni ideyalarla nəfəs gətirən və sözün ölçüsündən məharətlə istifadə edən bir şair olaraq Azərbaycan ədəbiyyatında öz imzasını həkk edib. Məmməd Araz milli ədəbiyyatımızda söz mülkünün seçilən və sevgi ilə zəngin misraları ilə söz aləmində fəlsəfi görüşlər ilə yadda qaldı. Bu, onun sənət meyarında insan düşüncəsini, idrakının qəbul edəcəyi dəyərləri əxz etməsi, cəmiyyətdə fikir formalaşdıraraq böyük bir insan kütləsini şeirlərin təsirində həyatla birbaşa dialoq yaratmağa qadir olan şeir nümunələri ilə insanlara aşılandı. Bu gün Azərbaycan şeirinə klassik nümunələri ilə imza atmış sənətkarın doğum günüdür. Sənətə isti misraları ilə bir rəng gətirən Məmməd Araz dünyası zamanın axarında öz sirli misraların təsir gücünü itirməmişdir. 14 oktyabr 1933-cü ildə dünyaya göz açmış, özünəməxsusluğu ilə seçilərək sənət dünyasında da fərdi bir iz qoya bilmişdir. Şahbuz rayonunun Nurs kəndində anadan olan Məmməd Araz doğulduğu məkanda orta məktəbi bitirdikdən sonra Azərbaycan Pedaqoji İnstitutda təhsil alır. 1954-cü ildə ali təhsilini başa vuran Məmməd Araz əmək fəaliyyətinə doğma kəndindəki orta məktəbdə müəllimliklə başlayır, sonra Bakıya köçərək Azərbaycan Nazirlər Soveti yanında Baş Mətbuat İdarəsində müvəkkil işləyir. 1959-1961-ci illərdə Moskvada Yazıçılar İttifaqı nəzdindəki ali ədəbiyyat kurslarının müdavimi olur. Sonra ”Ulduz” jurnalının məsul katibi, ”Ədəbiyyat və incəsənət” qəzetində, Azərbaycan Dövlət Nəşriyyatında baş redaktorun müavini vəzifəsində çalışır.

Şair, tərcüməçi, publisist kimi tanıdığımız şairin keçdiyi yol onu bir ziyalı olaraq tanıtdı. 1957-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olan Məmməd Araz əməkdar mədəniyyət işçisi, əməkdar incəsənət xadimi, Azərbaycan dövlət mükafatı laureatı, Azərbaycanın xalq şairi adına layiq görülür və Azərbaycan Respublikasının ”İstiqlal” ordeni, Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanları ilə təltif edilir. Hacı Zeynalabdin Tağıyev adına milli mükafatın laureatı olur. Onun adına ”Məmməd Araz” mükafatı təsis olunur. 1974-cü ildən ömrünün sonuna kimi ”Azərbaycan təbiəti” jurnalının baş redaktoru vəzifəsində çalışdı. Uzun müddət Yazıçılar İttifaqının poeziya bölməsinə rəhbərlik etdi. Yaradıcılıq yolunda kitablarının işıq üzü görməsi onun bu aləmdə daha da tanınmasına səbəb oldu. ”Sevgi nəğməsi”, ”Üç oğul atası”, ”Araz axır”, ”Mən səni taparam”, ”Anamdan yadigar nəğmələr”, ”Ömür karvanı”, ”İllərdən bəri, ”Həyatın və sözün rəngləri”, ”Oxucuya məktub”, ”Aylarım, illərim”, ”Dünya sənin, dünya mənim”, ”Dünya düzəlmir”, ”Daş harayı”, ”Yol ayrıcında söhbət”, ”Sənətdə son mənzil olmur” və s. kitabları onu daha da sevdirdi və oxucularla ünsiyyətini artırdı.

Tərcüməçilik fəaliyyəti də onun yaradıcılığını şaxələndirən bir faktordur. Belə ki, o, rus poeziyasının görkəmli nümayədələrinin əsərlərini dilimizə çevirdi. S.V.Mixalkovun ”Foma”, M.Svetlovun ”Şeirlər”, N.A.Nekrasovun ”Rus qadınları” və dünya şairlərinin şeirlərindən ibarət olan ”Ocaq başında” kitabları Azərbaycan oxucusunu dünya ədəbiyyatına yaxınlaşdırdı. Məmməd Arazın bədii tərcümələri sayəsində isə Azərbaycan oxucusu dünya ədəbiyyatının bir sıra nümunələri ilə tanış olmaq imkanı qazandı. Eyni zamanda, şairin əsərləri ayrı-ayrı xalqların dillərinə tərcümə edilərək nəşr olundu.

Məmməd Arazın yarım əsr davam edən ədəbi yaradıcılığı XX əsr Azərbaycan poeziyasının parlaq səhifələrindən birini təşkil etdi. Şairin xalqımızın əsrlərlə formalaşmış yüksək mənəvi dəyərlərini tərənnüm edən əsərləri insanlarımıza vətənpərvərlik və mübarizlik ruhunun aşılanmasında böyük xidmətlər göstərdi. Onun xalqa bağlılıq, milli kolorit, rəvan dil və ahəngdarlıqla səciyyələnən poeziyasında yüksək vətəndaşlıq ruhu hökm sürür. Şairin qələmindən çıxan hər bir poeziya nümunəsi özünəməxsusluğu, orijinallığı və bədii məziyyətləri ilə seçilir.

Azərbaycanda istiqlal təfəkkürünün formalaşmasında və təkamülündə Məmməd Araz yaradıcılığının xüsusi rolu olub. O, xalq, cəmiyyət, milli dövlətçiliyimiz qarşısında öz məsuliyyətini dərk edən əsil xalq şairi, Azərbaycan ziyalısı oldu. Onun vətənpərvərlik hissləri təcəssümü olan şeirlərində böyük sevgisini görürük:

**Nə yatmısan qoca vulkan, səninləyəm !**
**Ayağa dur. Azərbaycan, səninləyəm !**
**Səndən qeyri,**
**biz hər şeyi bölə billik.**
**Səndən qeyri,**
**Biz hamımız ölə billik.**

Zamanın diqtəsi ilə yazıb-yaradan şairin misralarında həyat, torpaq sevgisi ali bir hiss olaraq təqdim edilir. Çox yüksək bir emosiya ilə Azərbaycan ərənlərinə müraciətində bir cəsarət, tələb var. Bu vətən oğluna bir çağırış, ruhdur. Əli silah, külüng, yaba tutan nişanlı ərləri oyadan misralarında şair üsyanı sezilməkdədir. Qız atası olan kəslərə hanı nərən, hanı səsin, hanı andın sualını ünvanlaması onları xırdalanmaqdan, kiçilməkdən uzaqlaşdırır:

**Yoxsa sən də yatmışlara, batmışlara,**
**Qeyrətini satmışlara xırdalandın?**

- deməsi ilə vətən oğlunu ayağa durmağa səsləyir. Sərhədinə yaxşı baxmaq üçün içindəki qorxunu boğmağı, ölümlə qalımını ayırd etməsini məsləhət görür. ”Dur özünü Boz Qurd elə!” qətiyyəti yetişən nəsil üçün bir qeyrət nümunəsi olacaq misradır. Məmməd Arazın məşhur olan ”Dünya sənin, dünya mənim” şeirində şair fəlsəfəsi ilə baş-başa qalırıq:

**Bir taleyin oyununda cütlənmiş zərik,**
**Yüz il qoşa atılsaq da, qoşa düşmərik.**
**Bir zərrənin işığına milyonlar şərik,**
**Dünya sənin,**
**dünya mənim,**
**dünya heç kimin...**

İnsan etibarı, fərdlərin bir-biri ilə xoş ünsiyyəti şairin fikir dünyasını şərtləndirən amillərdir. Onun saf, ali düşüncəsindən süzülən misralarında Məmməd Araz siması açıq-aydın görünür:

**Hər çətin anımda kəsin yanımı,**
**Axın ürəyimə gülüşlə, sözlə,**
**Mən öz varlığımı, öz ünvanımı**
**Tapıram hər yeni gəlişinizlə.**

Dünyadan köç edən şairin fəlsəfi görüşləri onu oxucular arasında əbədiləşdirdi. Böyük sevgi ilə yaradan şair dünyası elə böyük sevgi ilə də əhatə olunaraq əbədiyaşarlıq hüququ qazandı. Məmməd Araz dünyası poeziyasevərlərin dünyasına köçdü. Bir ömür fəlsəfəsi milyonların həyat yolunda meyara çevrildi.

Ümummilli Lider Heydər Əliyev Xalq şairi, poeziyamızın istedadlı nümayəndəsi Məmməd Araz yaradıcılığına və şəxsiyyətinə daim yüksək qiymət vermişdir. Onun təkrarsız istedadı 1970-ci illərdə, Ulu Öndərin Azərbaycana rəhbərliyinin birinci dövründə parlamışdır. 1975-ci ildə Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif olunan böyük şairə 1978-ci ildə ”Əməkdar mədəniyyət işçisi” fəxri adı verilib, 1995-ci ildə isə ümummilli lider Heydər Əliyev tərəfindən Xalq şairi Məmməd Araz ”İstiqlal” ordeni ilə təltif edilib.

Azərbaycan ədəbiyyatının inkişafındakı xidmətlərini nəzərə alan Prezident İlham Əliyev görkəmli sənətkarın xatirəsinin əbədiləşdirilməsi, yubileylərinin keçirilməsi haqqında sərəncamlar imzalayıb. Bu sərəncamlar Azərbaycan ədəbiyyatının, bütövlükdə yaradıcı ziyalıların, o cümlədən Məmməd Araz sənətinin və şəxsiyyətinin böyük himayədarı, Ulu Öndər Heydər Əliyev ənənələrinin müasir şəraitdə uğurlu davamı kimi yüksək dəyərə malikdir. Böyük sənətkar 2004-cü ilin dekabrın 1-də Bakıda vəfat edib və Fəxri xiyabanda dəfn olunub.

***Zümrüd BAYRAMOVA***

# "Tarix Ulu Öndərin xalqa müraciətini real həyatda da yaşatdı"



“15 oktyabr 2003-cü ildə Cənab İlham Əliyevi Prezident seçməklə xalqımız Ümummilli Lider Heydər Əliyevin siyasi kursuna sədaqətini nümayiş etdirmiş oldu. Ulu Öndər 1 oktyabr 2003-cü ildə prezidentliyə namizədliyini Cənab İlham Əliyevin xeyrinə götürdüyünü elan edəndə demişdi: ”İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və böyük ümidlər bəsləyirəm”. Tarix Ulu Öndər Heydər Əliyevin xalqa müraciətinin real həyatda nəticəsinin təntənəsini yaşatdı”. Bunu millət vəkili Azər Badamov ”Səs” qəzetinə açıqlamasında bildirib.

Onun sözlərinə görə, Prezident İlham Əliyevin rəhbərliyi dövründə Regionların Sosial İqtisadi İnkişafı Dövlət Proqramları uğurla icra olundu. Neft kapitalını insan kapitalına çevirmək siyasətini üstün tutaraq insanların sosial rifahının yaxşılaşdırılması istiqamətində böyük islahatlar aparıldı. Azərbaycanın iqtisadiyyatı sürətlə inkişaf etdi. Ordu quruculuğunda yeni dönəm başlandı. Azərbaycanın Milli Ordusu dünyanın güclü orduları sırasında 50-ci yerə layiq görüldü. Düşünülmüş şəkildə aparılan beynəlxalq siyasəti sayəsində Azərbaycan beynəlxalq arenada nüfuzlu və sözünə hörmətlə yanaşan ölkəyə çevrildi”.

A.Badamov onu da bildirdi ki, ölkəmiz BMT TŞ-na qeyri-daimi üzvü seçilərək sədrlik etdi: ”Böyüklüyünə və nüfuzuna görə BMT -dən sonra ikinci yerdə olan 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına 2019-2023-cü illərdə sədrlik edir. Bu gün ölkəmiz Avropanın enerji təhlükəsizliyində yaxından iştirak edən alternativsiz yeni mənbəyə çevrildi. Prezidentin siyasətin şah əsəri iki il əvvəl imza atdığımız 44 günlük Vətən müharibəsində Böyük qələbəmiz oldu. Çünki, Azərbaycan özünün dövlətçilik tarixində ilk dəfə olaraq işğal olunmuş torpaqlarını məhz Prezident İlham Əliyevin sayəsində azad etdi. Bu gün isə Prezident İlham Əliyev dünya səviyyəli, qətiyyətli və yüksək diplomatik təcrübəyə malik Lider olaraq beynəlxalq platformalarda Azərbaycanın milli maraqlarını yüksək səviyyədə qoruyaraq dünya ictimaiyyətinə qəbul etdirir. Həm də işğaldan azad olunmuş ərazilərdə yüksək quruculuq işləri həyata keçirilərək Böyük qayıdışı reallaşdırır. Azərbaycanı daima qələbələrə doğru aparır. Qısa olaraq qeyd edə bilərəm ki, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanı daha gözəl və firavan gələcək gözləyir”.

***Gülyana***

# Media Reyestri fəaliyyətə başlayıb




Media Reyestri fəaliyyətə başlayıb. SİA xəbər verir ki, bu barədə Medianın İnkişafı Agentliyi məlumat yayıb. Qeyd edilib ki, Prezident İlham Əliyevin ”Media haqqında” Qanunun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə” Fərmanına əsasən, Medianın İnkişafı Agentliyi, Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi də daxil olmaqla, aidiyyəti qurumların üzərinə Media Reyestrinin yaradılması və onun fəaliyyətinin təmin olunması istiqamətində müvafiq tapşırıqlar qoyulub.

Bildirilib ki, Nazirlər Kabinetinin müvafiq qərarları ilə Media Reyestri şəhadətnaməsi və jurnalist vəsiqəsinin forması, həmçinin jurnalist vəsiqəsinin verilməsinə və ya dəyişdirilməsinə görə ödənişin məbləği və həmin vəsaitdən istifadə qaydası təsdiq edilib, bununla da Media Reyestrinin hüquqi təminatının yaradılması istiqamətində verilmiş tapşırıqların icrası yekunlaşıb. Beləliklə, Media Reyestri İnformasiya Sisteminin proqram təminatının formalaşdırılması prosesi də uğurla başa çatıb və 14 oktyabr 2022-ci il tarixindən etibarən Reyestr fəaliyyətə başlayıb.

Məlumatda vurğulanıb ki, media subyektləri və jurnalistlər Media Reyestri İnformasiya Sisteminə reyestr.media.gov.az portalı üzərindən ASAN Login vasitəsilə daxil olaraq, müraciətlərini formalaşdıra bilərlər. ”Media Reyestri İnformasiya Sistemindən istifadəyə dair məlumatlandırıcı çarxla buradan tanış ola bilərsiniz. Bununla yanaşı, Media Reyestrinin informativ veb-səhifəsinin ”Tez-tez verilən suallar” bölməsində Reyestrə müraciətlə bağlı detallı məlumatları əks etdirən təlimatla da tanış olmaq mümkündür”, - məlumatda qeyd olunub.

# Naməlum müstəvidə və formatda QIRMIZI XƏTT






***Rusiya-Ukrayna müharibəsinin artıq nəinki daha aktiv fazaya, hətta təhlükəli mərhələyə keçmə ehtimalı var və bu, qlobal müstəvidə həyəcan təbili çalmaq üçün yetərlidir. Belə bir həyəcan artıq hiss olunur və dünya ictimaiyyəti heç də məsələyə dırnaqarası, etinasız yanaşmır. Təhdidləri nəzərə alan bəzi politoloqlar hətta "Qiyamət günü" barədə proqnoz və xəbərdarlıq etməkdən də çəkinmirlər. Çünki Ukraynada davam etməsi fonunda sözügedən müharibədə aydındır ki, dolayısı ilə iki hegemon dövlət, ABŞ və Rusiya olmaqla, iki aparıcı nüvə ölkəsi arasında hegemonluq uğrunda mübarizədir.***

Hər kəsi bir sual düşündürür ki, görəsən nüvə silahı istifadə olunacaqmı? Təkcə düşündürmür, həm də narahat edir, çünki bu silah heç də digərlərinə bənzəmir və yalnız atıldığı ərazi deyil, bütövlükdə planetimiz üçün təhlükəli, daha dəqiq desək, məhvedici hesab olunur. Həmin silahı Rusiyanın istifadə edəcəyi barədə bildirilənlər də bu baxımdan dünya ictimaiyyətini narahat edir.

Bəllidir ki, nüvə silahının istifadəsi, yəni nüvə müharibəsi heç bir tərəfin qalibiyyəti demək deyil, əksinə, nüvə silahının istifadəsi bütövlükdə planetin məhvinə səbəb ola bilər. Bunu açıq şəkildə Rusiya da etiraf edir və bildirir ki, nüvə müharibəsində heç bir qalibin ola bilməyəcəyi bəllidir. Bir tərəfdən Rusiya bu rakursdan da çıxış edərək bəyan edir ki, nüvə silahını istifadə etməmək postulatına sadiqdir. Hətta bu tezis artıq beş aparıcı nüvə dövlətinin liderlərinin yanvar bəyanatında da öz əksini tapmışdı. Söhbət eyni zamanda nüvə silahına malik dövlətlər arasında müharibənin qarşısının alınması və strateji risklərin azaldılması zərurətindən gedir və heç şübhəsiz ki, bu məsuliyyəti hər kəs dərk edir.Digər tərəfdən də Rusiya lazım olacağı təqdirdə artıq nüvə silahından istifadə edəcəyini bəyan edir. Hətta qeyd olunur ki, bu dəfə daha kəskin qərar verəcək. Bütün bunlar isə sözsüz ki, narahatlıq doğuran məqamlardır, çünki Ukrayna ilə müharibəni başlamayacağını bəyan etməsinin ardınca Rusiya müharibəyə start verdi və hələ də döyüş davam edir. Deməli, hadisələrin hansı məcrada olacağını indidən proqnozlaşdırmaq mümkün deyil. Elə ən həssas məsələ də budur, çünki əvvəlcədən bilinəcəyi təqdirdə qarşısının alınması üçün ən azından tədbirlər görülə bilər. Bu vəziyyətdə isə, yəni nə kimi, hansı addım atılacağı bilinmədiyi halda narahatlıq daha çox olur.

Bilirik ki, Amerikanın Kiyevə yeni hərbi yardım paketi artıq əməllibaşlı qıcıq doğurub. Rusiyanın Vaşinqtondakı səfiri Anatoli Antonov həmin o yardım paketini şərh edərkən birbaşa qeyd edib ki, bu cür hərəkətlər ABŞ üçün münaqişə iştirakçısı statusunu təmin edir. Yəni, belə bir yardım paketi Amerikanın münaqişədə iştirakçı olduğunu qənaəti üçün əsas hesab olunur. Bir sözlə, Rusiya indi Amerikanın münaqişədə iştirakçı olduğunu əsas gətirərək nüvə silahından istifadə məsələsinə qayıda bilər. Rusiyanın BMT-dəki nümayəndə heyəti rəhbərinin müavini Konstantin Vorontsov da əlavə edib ki, artıq bu gün birbaşa silahlı münaqişənin astanasında balanslaşdırma aktı var. Onun sözlərinə görə, bu, daha da gərginləşməklə, dəhşətli nəticələrlə nüvə güclərinin hərbi toqquşması ilə sonlana bilər.

Xatırladaq ki, Rusiya prezidenti Vladimir Putinin özü də bu yaxınlarda xəbərdarlıq etmişdi ki, ölkəsinin bütövlüyü təhlükə altında qalacağı təqdirdə istənilən vasitəyə əl ata bilər. "Ölkəmizin ərazi bütövlüyü təhlükə altına düşəndə biz, şübhəsiz ki, Rusiyanı və xalqımızı qorumaq üçün əlimizdə olan bütün vasitələrdən istifadə edəcəyik və artıq bu blef deyil", deyən Rusiya prezidenti Vladimir Putin məsələnin ciddiliyini nəzərə çatdırır və belə ciddi məqamda onun bütün vasitələr dedikdə nəyin nəzərdə tutulduğu bəllidir. Əlbəttə ki, bütün vasitələr dedikdə ilk növbədə nüvə silahı başa düşülür. Deməli, Putin lazım olacağı halda, nüvə silahına əl atacağı barədə əvvəlcədən xəbərdar edir və ən təhlükəli məqam elə budur.

Həmçinin Rusiya prezidentinin "bu artıq blef deyil", ifadəsi də diqqət çəkir. Xatırladığımız kimi, müharibə hələ yenicə başladığı dövrdə, daha dəqiq desək, ruslar ilk uğursuzluqlarla qarşılaşdıqları zaman və eləcə də dünya ölkələri Ukraynanı dəstəkləməyə başladıqları zaman Rusiya tərəfi nüvə başlıqlarını hazır vəziyyətə gətirmişdi. O zaman rusların belə bir addım atmaları "blef" kimi xarakterizə edildi və bütün dünyada belə bir fikir formalaşdı ki, guya Rusiya nüvə silahını xatırlatmaq üçün nüvə başlıqlarını hazır vəziyyətə gətirir və bir növ hədəqorxu gəlir. Yəni, açıq şəkildə qeyd olunurdu ki, Rusiya blef edir. İndi həmin ifadələri xatırladaq Putin bəyan edir ki, bu dəfə heç kim deyilənləri blef olaraq qəbul etməsin. Hətta bir çox analitiklər bu bəyanatı Rusiyanın bilavasitə döyüş meydanında taktiki nüvə silahından istifadə etmə ehtimalına açıq bir eyham kimi qiymətləndirdilər. "ABŞ prezidenti Co Bayden kimi mən də Rusiyaya deyirəm ki, bunu etmə!", deyən Almaniya kansleri Olaf Şolz bu ifadəsi ilə məsələnin ciddiliyinə diqqəti cəlb edir. Almaniya kanslerinin, ABŞ prezidentinin timsalında çoxlarının narahatlığı anlaşılandır və narahatlıqları heç də təsadüfi deyil.

Məsələ burasındadır ki, Rusiya rəhbərliyinin qismən səfərbərlik qərarı tamamilə başqa bir məqama diqqəti çəkir. Etiraf edək ki, əgər nüvə silahının istifadəsi nəzərdə tutulsaydı, qismən səfərbərlik qərarı verilməzdi. Yəni, qismən səfərbərlik qərarı Ukrayna silahlı qüvvələrinə qarşı birbaşa taktiki nüvə silahından istifadədən imtina kimi şərh oluna bilər. Şübhəsiz ki, həqiqətən də nüvə eskalasiyası variantı nəzərdən keçirilsəydi, onda qismən səfərbərliyə ehtiyac belə qalmazdı. Hətta qismən səfərbərlik elan etməklə, Moskvanın adi silahlarla xüsusi əməliyyatda dönüş nöqtəsinə nail olacağına ümid etdiyi bəlli olur. Deməli, Rusiya hələ "qırmızı xətti" gözləyir, amma bu qırmızı xəttin hansı xətt olduğu təyin edilməlidir. Daha dəqiq desək, Qərbin Ukraynaya dəstəyinin Rusiya tərəfindən hansı səviyyədə və hansı formatda "qırmızı xətti" keçmək hesab edəcəyini aydın və birmənalı müəyyən etmək lazımdır. Çox güman ki, bu, Qərbin münaqişədə birbaşa iştirakı, birbaşa dəstəyidir. Axı bu gün də həmin dəstək Kiyevin hərbi uğurlarında həlledici rol oynayır. Təbii ki, "qırmızı xəttin" hansı müstəvidə, hansı şəraitdə olduğu bu gün müəyyən olunması qaçılmaz olan əsas məsələdir. Lakin, görünən odur ki, hələ də naməlum müstəvidə "qırmızı xətt" bəşəriyyəti narahat edir.




***İnam Hacıyev***



# İLHAM ƏLİYEV FENOMENİ: Müstəqil dövlət, müstəqil siyasət



*Şuşanı işğaldan azad edən Müzəffər Sərkərdə "Mən ona özüm qədər inanıram" deyən Ulu Öndərin Ata vəsiyyətini yerinə yetirdi - bu vəsiyyətin təməlində Azərbaycançılıq ideologiyasının tarixi məfkurələri dayanırdı!*

İstənilən bir xalqın tarixi inkişafına nəzər salsaq görərik ki, böyük uğurların əldə olunmasında, dünyada gedən intibah prosesində ölkələrin qabaqcıl pillələrdə qərarlaşmasında liderlərin rolu həlledicidir. Belə ki, liderlik bacarığı elə siyasətçilərə məxsusdur ki, onlar xalqının, dövlətinin milli maraqlarını qorumaqla yanaşı, həm də öz ölkəsini davamlı şəkildə inkişaf etdirir, yorulmadan irəliyə doğru apara bilir. Məhz bu mənada, Azərbaycan xalqı da çox xoşbəxtdir ki, ölkəmizə uzun müddət dünya siyasətinin fenomeni, bütün həyatını canından artıq sevdiyi doğma xalqına həsr etmiş Ulu Öndər Heydər Əliyev kimi dahi şəxsiyyət rəhbərlik etmişdir. Xalqımız həm də ona görə xoşbəxtdir ki, Ümummilli Liderimiz Heydər Əliyevin ideyaları, müəyyənləşdirdiyi və əsasən Azərbaycançılıq təməlində olan bütün prioritetləri dövlətçiliyimizin hərtərəfli inkişaf konsepsiyası fonunda onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

2003-cü ilin prezident seçkiləri ərəfəsində Dahi Şəxsiyyət Heydər Əliyev sevimli xalqına etdiyi tarixi müraciətində əminliklə demişdi: ”İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”.

## Bu siyasi kursa sadiqliyini nümayiş etdirən xalqımız Ümummilli Liderə sevgisini və inamını bir daha sübut etdi

Xalqın səsinin mütləq əksəriyyətini qazanmış İlham Əliyev. 2003-cü ilin 15 oktyabr tarixində keçirilmiş seçkilərdə seçicilərin 76 faizdən çoxu İlham Əliyevə səs vermişdir. Bununla da xalq öz səsini Ulu Öndər Heydər Əliyev siyasətinin davam etdirilməsinə və ölkədə sabitliyin qorunmasına vermişdir. Beləliklə, Azərbaycan xalqı İlham Əliyevi Prezident seçməklə öncə Heydər Əliyevin siyasi kursuna səs verdi. Bu siyasi kursa sadiqliyini nümayiş etdirən xalqımız Ümummilli Liderə sevgisini və inamını bir daha sübut etdi. Azərbaycan xalqı sülhün, əmin-amanlığın, tərəqqinin, inkişafın, quruculuğun və sabitliyin tərəfində olduğunu nümayiş etdirdi, ölkədə bu siyasətə alternativin olmadığını göstərdi.

İlham Əliyev 2003-cü ildə Prezident seçilərkən onun ilk vədi bu oldu: ”Mən hər bir Azərbaycanlının Prezidenti olacağam... Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm”.

Prezident İlham Əliyevin siyasi qayəsi və amalı bilavasitə milli-mənəvi dəyərlər və yuxarıda da qeyd olunduğu kimi, Azərbaycançılıq ideologiyası üzərində təşəkkül tapdı və bu xüsusda öndə dayanan bir nömrəli məqsəd ölkəmizin inkişafı və tərəqqisi ilə yanaşı, həm də torpaqlarımızın düşmən işğalından azad olunmasında idi. XXI əsrin yeni tarixini yazan da, Müzəffər Ali Baş Komandan, Fateh Sərkərdə olaraq öz imzasını dünya liderləri sırasında qoyan da məhz bizim Prezidentimiz, Milli Liderimiz İlham Əliyev oldu. Sübut olundu ki, Azərbaycan xalqının öz adına layiq olduğu ideoloji prinsipləri əsla və heç vaxt arxa planda dayanmayacaq!

## Qarabağ Zəfəri - ardıcıl strateji və düşünülmüş siyasətin nəticəsi!

44 günlük Vətən müharibəsinin qalibi olan qüdrətli Azərbaycan dövlətinin, qədirbilən Azərbaycan xalqının və güclü Milli Ordumuzun bir yumruq kimi birləşərək, vahid şəkildə müdrik sərkərdənin rəhbərliyi ilə göstərdiyi şücaətlər, qəhrəmanlıqlar isə dillərdə dastan oldu.



**Bəhruz QULİYEV,**
**“SƏS” qəzetinin baş redaktoru, fəlsəfə üzrə fəlsəfə doktoru**

***Qısa arayış: Ərazisinin bir hissəsi - 20%-i işğal altına düşmüş, xalqının vətəndaşlarının təxminən 12-13%-i qaçqın və məcburi köçkün vəziyyətinə düçar olmuş, dövlətçiliyi, müstəqilliyi itirilmək təhlükəsi ilə üz-üzə, iqtisadiyyatı dağılmış və iqtisadi potensialı, nizami ordusu olmayan Azərbaycanı dünyada siyasi nüfuza sahib, müzəffər güclü orduya, funksional, stabil inkişaf edən kifayət qədər iqtisadi potensiala, regional və qlobal söz sahibi olan müstəqil, qüdrətli, qalib dövlətə çevirmək sözsüz ki, ardıcıl strateji və düşünülmüş siyasətin nəticəsidir.***

Məhz bu konspeksiyanı dərindən araşdırarkən bir daha əmin oluruq ki, İlham Əliyevin strategiyası və mükəmməl siyasi analitik qabiliyyətinə malik olması fonunda ideoloji əsasların bir sıra funksional amilləri dayanır.

## İlham Əliyevin Sərkərdəliyi və Liderliyi ilə bu vaxta qədər olan stereotiplər kökündən məhv edildi

Əgər Vətən müharibəsinə qədər dünyanın siyasi arenasında dövlətimiz iqtisadi və sosial cəhətdən tərəqqi yolunu tutan dövlət kimi anlaşılırdısa, Vətən müharibəsindəki Zəfərimizdən sonra Azərbaycan paralel olaraq dünyanın ən aparıcı ordularına məxsus militar - yeni mükəmməl hərbi gücə malik olan dövlətləri sırasında yer aldı. Çünki İlham Əliyevin Sərkərdəliyi və Liderliyi ilə bu vaxta qədər olan stereotiplər kökündən məhv edildi. Azərbaycan xalqı onun ətrafında sıx birləşərək Azərbaycançılıq, milli ideya formalaşması fonunda öz qalibiyyətinə doğru inamla irəlilədi. Artıq bu gün xalqımız, dövlətimiz bütün yüksək tribunalarda başıdik gəzir və bütün bunlara görə xalq öz Müzəffər Ali Baş Komandanına, ordusuna minnətdardır!



## Dürüst və dönməz siyasi iradə, xalqa açıq siyasət və xalqla müzakirə, dünya liderləri ilə görüşlərində və müxtəlif platformalarda konkret təşəbbüslər və təkliflər

Təbii ki, qazanılan uğurlar arxasında dayanan daha bir gerçəklik Prezident İlham Əliyevin qətiyyətli və müstəqil siyasətidir. Əgər bu gün Azərbaycan müstəqil siyasəti ilə dünyanın siyasi arenasında öz sözünü deyirsə, təşəbbüslərini irəli sürərək onları qəbul etdirirsə bu, həm də dövlətimizin müstəqilliyinin bariz isbatıdır.

Və biz bir daha Prezident İlham Əliyevin siyasi fəaliyyətində mühüm ştrixləri görməkdəyik - dürüst və dönməz siyasi iradə, xalqa açıq siyasət və xalqla müzakirə, dünya liderləri ilə görüşlərində və müxtəlif platformalarda konkret təşəbbüslər və təkliflər.

Belə bir möhtəşəm liderlik keyfiyyətləri sözün əsl mənasında hər dövlət başçısında olmur və hələ 2003-cü ilin prezident seçkilərində xalqın iradəsi sayəsində dövlətin ali idarəçilik postuna seçilən 42 yaşlı İlham Əliyev əslində o dövrün çətinliklərini bütün məsuliyyəti öz üzərinə götürməsi ilə ilk qətiyyətli addımını atmış oldu. Onun məqsədi Ulu Öndər Heydər Əliyevin Azərbaycançılıq sevgisini, Vətən və Xalq məhəbbətini yeni strateji impulslarla bir araya gətirmək, dünyaya əsrarəngiz, mükəmməl bir dövlət təqdim etmək oldu.

## İlham Əliyev Azərbaycançılıq ideologiyasını beynəlxalq aləmə təqdim edərək xalqının öz tarixi milli köklərinə sahib olduğunu sübut edir

Onu da qeyd edək ki, Azərbaycan tarixinin ən ciddi, həyati əhəmiyyətli, dönüş məqamı və dönüş mərhələsinin yaşandığı bir dövrdə xalqına rəhbərlik, sərkərdəlik etmək missiyası nəsib olmuş İlham Əliyev ən böyük Azərbaycanlı olaraq öz adını qürur tariximizə həkk edib. O, xarakterсə həm islahatçı həm yeniliklərin mənimsənilməsi və daha da modernləşdirilib tətbiq olunmasında təşəbbüskar və ən əsası - milli-ideoloji dəyərlərimizi mühafizə edən, onu dünyaya məxsusi olaraq təqdim etməyi bacaran LİDERDİR. Əbəs deyil ki, bu gün İlham Əliyev deyərkən ilk-əvvəl düşüncələrdə Şərq və Qərbin mühüm dəyərlərini bir araya gətirən müasir Lider tərənnümü formalaşır. İlham Əliyev bu mənada da Azərbaycançılıq ideologiyasını beynəlxalq aləmə təqdim edərək xalqının öz tarixi milli köklərinə sahib olduğunu sübut edir.

Hər bir vətənsevər və ruhu ilə dövlətinə, ölkəsinə bağlı olan Azərbaycan vətəndaşı onun Liderinin İlham Heydər oğlu Əliyev olmasından hədsiz qürur duyur!

***Növbəti qısa arayış: Ərazisinin 20 %-nin işğal, əhalisinin 10%-nin məcburi köçkün halında yaşamaq məcburiyyətində qalma səbəbi müstəqilliyimizə təhdidlər fonunda Azərbaycan dövlətinin yerləşdiyi vacib strateji-geosiyasi mövqedə və neft ölkəsi olaraq tam müstəqil siyasət yürütməsi bugünkü dünyanın möcüzələrindəndir. Azərbaycanın vəziyyətində olan və Azərbaycan böyüklüyündə ikinci bir ölkə yoxdur ki, müstəqil siyasət həyata keçirə bilə, həm də müsəlman ölkəsi olaraq!***



Və ən nəhayət, İlham Əliyev Qarabağımızın incisi Şuşa şəhərinin azad edildiyi gün qürurla bəyan edən mütərəqqi Azərbaycançıdır!

Şuşanı işğaldan azad edən Müzəffər Sərkərdə "Mən ona özüm qədər inanıram" deyən Ulu Öndərin Ata vəsiyyətini yerinə yetirdi - bu vəsiyyətin təməlində Azərbaycançılıq ideologiyasının tarixi məfkurələri dayanırdı!

Bu gün Ulu Öndərin yolunu davam etdirən İlham Əliyev həm də onun irsinin, milli ideyalarının, Azərbaycançılıq təməllərinin və siyasi yolunun uğurla davam etdirilməsi yönündə müstəqil və qətiyyətli siyasətini həyata keçirməsi ilə müstəqil, güclü və qüdrətli Azərbaycan reallığını dünyaya təsdiq və təsbit edir. Qələbədən sonra dünyaya tam yeni bir Azərbaycan, yeni bir lider və sözün əsil mənasında sənəddə və əməldə müstəqil olan ölkə təqdim olunur. Bu gün yeni tarix yazılır, qalib ölkənin qalib vətəndaşının yeni baxışı, təfəkkürü formalaşır və bu təfəkkürdə yeni ideolojiya yaranmış olur. Bu müstəqil Azərbaycançılıq ideologiyasıdır. Hər bir vətənsevər və ruhu ilə dövlətinə, ölkəsinə bağlı olan Azərbaycan vətəndaşı onun Liderinin İlham Əliyev olmasından hədsiz qürur duyur!



# "İlham Əliyev - dövlətin və vətəndaşların hüquq və azadlıqlarının qarantı"





***Dünən Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatı və Pirallahı rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "İlham Əliyev - dövlətin və vətəndaşların hüquq və azadlıqlarının qarantı" mövzusunda tədbir keçirilib. SİA-nın verdiyi məlumata görə, tədbirdə Pirallahı rayon icra hakimiyyətinin başçısı Vasif İmanov, "SƏS" Media Qrupunun rəhbəri Bəhruz Quliyev, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Alqış Musayev, YAP Pirallahı rayon təşkilatının sədri Emil Abasov və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.***

Tədbir Rayon İcra Hakimiyyətinin foyesində Ulu öndər Heydər Əliyevin büstü önü-




nə gülqoyma mərasimi ilə başlayıb. İlk olaraq dövlət himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. "İlham Əliyev - dövlətin və vətəndaşların hüquq və azadlıqlarının qarantı" adlı film nümayiş olunub.

"Yeni Azərbaycan" qəzetinin baş redaktoru, filologiya üzrə fəlsəfə doktoru Alqış Musayev ilk dəfə Pirallahıda olduğunu qeyd edərək görülən abadlıq-quruculuq işlərindən heyranlığını dilə gətirib. Pirallahı rayonun timsalında bütün Azərbaycan şəhər və kəndlərinin, o cümlədən işğaldan azad olunmuş Qarabağın çiçəklənməsinin şahidi olduğunu vurğulayan natiq qeyd edib ki, qazanılan bu intibah dövlətin dayanıqlı inkişafını təmin edən cənab İlham Əliyevin gərgin və fədakar əməyinin nəticəsində əldə olunub. Dövlət başçısının ölkəni idarə etdiyi dövrdə bir zamanlar yalnız xəyal kimi görünən nəhəng enerji layihələri, ölkənin hər yerində abadlaşma, müasirləşmə, Azərbaycanın dünyada tanınması və milli maraqlara xidmət edən çoxsaylı digər məqsədlər və ən nəhayət, 44 günlük Vətən müharibəsi ilə Qarabağ münaqişəsini həll edilərək torpaqlarımızın işğaldan azad olunmasını söyləyən natiq, bütün dünya azərbaycanlılarının öz lideri ilə fəxr etdiyini vurğula-




yıb.

Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının sədri Emil Abasov öz çıxışında cənab Prezidentin çoxşaxəli fəaliyyətindən danışaraq qeyd edib ki, demokratiya və insan hüquqları, sosial tərəqqi kimi ümumbəşəri dəyərlərə sadiq olan və hüquqi dövlət quruculuğu yolunda inamla irəliləyən Azərbaycan insanların layiqli həyat şəraitinin, rifah səviyyəsinin, cəmiyyətdə özlərini təsdiqetmə imkanlarının artırılması üçün ciddi işlər görmüş və Azərbaycan bu sahədə daha böyük uğurlara imza atmışdır. Heydər Əliyev və Azərbaycançılıq məfkurəsinin müstəqil Azərbaycan dövlətinin ana xəttini təşkil etdiyini vurğulayan natiq, xalqımızın Ümummilli Lider Heydər Əliyevin siyasi varisi, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar şəxsiyyət kimi dünya siyasətində özünəməxsus yer tutan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ətrafında sıx birləşdiyini, Yeni Azərbaycan Partiyasının ideyalarını sidq ürəklə daşıyan partiya tərəfkeşlərinin hər zaman cənab Prezidentə sadiq olacaqlarını diqqətə çatdırıb.

"SƏS" Media Qrupunun təsisçisi və rəhbəri Bəhruz Quliyev çıxış edərək vurğulayıb ki, böyük şəxsiyyətlər yaşayıb yaratdıqları, fəaliyyət göstərdikləri zamanlarda siyasi, iqtisadi və digər prosesləri öz xalqlarının rifahı naminə irəliyə aparmaqla adlarını əbədi olaraq tarixə yazırlar: "Hər bir xalq öz tarixi şəxsiyyətləri ilə fəxr edir, onların yaratdığı irsə böyük ehtiramla yanaşır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu daxili və xarici siyasət kursu sayəsində Azərbaycan gələcəyə əmin addımlarla irəliləyir. Dayanıqlı inkişaf naminə müəyyən olunmuş strateji hədəflərə çatmaq üçün böyük işlərə start verilməsi isə islahatların davamlı olacağına dəlalət edir. Bütövlükdə isə, həyata keçirilən və reallaşdırılması nəzərdə tutulan islahatlar sayəsində ölkəmiz daha




yüksək nailiyyətlər əldə etmək gücündədir.

B.Quliyev müstəqil Azərbaycan Respublikasının dövründə böyüyüb boya başa çatmış vətənpərvərlik ruhunda tərbiyə almış gənclərin torpaqlarımızın azad olunmasında müstəsna xidmətləri olduğunu vurğulayıb. Natiq, İlham Əliyevin dövlətçilik siyasətinin iki mühüm amilinə - milli dövlətçilik, müstəqillik uğrunda mübarizə tarixinə və dövlətçiliyimizin inkişafında misilsiz rol oynamış Heydər Əliyev məktəbinə əsaslandığını qeyd edib. Ümummilli Liderin siyasi kursunun yeganə düzgün yol olduğunu görən Azərbaycan xalqı 2003-cü il oktyabrın 15-də keçirilən seçkilərdə bu siyasətin layiqli davamçısı kimi İlham Əliyevi dəstəkləyərək 76,8 faiz səslə Prezident seçdi. İlham Əliyevin ali dövlət vəzifəsində ilk günlərdən başlayaraq nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, qətiyyətli və milli maraqlara söykənən daxili və xarici siyasəti, seçkiqabağı təşviqat dövründə səsləndirdiyi "Mən hər bir azərbaycanlının prezidenti olacağam!" vədinə sadiq qalması qısa müddətdə ona xalq arasında geniş populyarlıq, sonsuz inam, güclü etibar və sevgi qazandırdı.

Sonda Pirallahı rayon icra hakimiyyətinin başçısı Vasif İmanov çıxış edərək diqqətə çatdırıb ki, ölkə başçısı prezidentliyi dövründə, ilk növbədə, Ümummilli Lider Heydər Əliyev tərəfindən təməli qoyulmuş vətəndaş birliyi platformasına söykənərək daxili ictimai-siyasi sabitliyi daha da möhkəmlətmiş, əhalinin təhlükəsizliyini, insanların əsas hüquq və azadlıqlarını, ölkənin əmin-amanlığını təmin etmiş, vətəndaşların rifah halının getdikcə yüksəlməsinə nail olmuşdur. Hazırda tərəddüd etmədən söyləmək olar ki, daxili milli birlik və vətəndaş həmrəyliyi, cənab Prezidentin yürütdüyü siyasətin geniş əhali tərəfindən dəstəklənməsi əsasında bərqərar olmuş möhkəm ictimai-siyasi sabitlik əmsalına görə Azərbaycan postsovet məkanında birinci yerdə dayanır. Azərbaycanda demokratiyanın tam formalaşması prosesində mediaya göstərdiyi şəxsi qayğısı, iqtisadiyyatın dinamik




inkişafına, qeyri-neft sektorunun, kənd təsərrüfatının dirçəldilməsinə istiqamətlənmiş fəaliyyəti, bu gün dünyanın təqdir etdiyi və bəzən, hətta heyran qaldığı transmilli layihələrin reallaşma sürəti, ölkə əhalisinin sosial-mədəni həyatının yüksək göstəricilərlə təmin edilməsi, ordu quruculuğundakı misilsiz uğurlar, torpaqlarımızın işğaldan azad edilməsi, şəhid ailələrinə, müharibə veteranlarına dövlət qayğısı, işğaldan azad olunmuş ərazilərimizdə sürətli və genişmiqyaslı işlərin görülməsi, Böyük Qayıdışın başlanması və digər bu kimi mühüm sahələr Cənab Prezidentin 19 illik fəaliyyət dövrünün ən böyük uğurları kimi yaddaşlarda dərin izlər saldığını qeyd edən

V.İmanov dövlətçiliyimizin inkişafı və qüdrətlənməsi naminə hər kəsə uğurlar arzulayıb.

***Arzu Qurbanlı***

# Ermənistan-Azərbaycan sülh sazişinin imzalanmasına nə mane olur?



*Ekspertlər Azərbaycan və Ermənistan arasında danışıqlar prosesinin gedişi və sülh müqaviləsinin imzalanmasına mane olan səbəbləri açıqlayıb*

Son zamanlar Ermənistanın öz təhlükəsizlik problemlərinin həlli yollarını xaricdə axtarmaq istəyi hər kəsə aydın olub. İrəvan israrla gah Fransaya müraciət edir, gah ABŞ-a, gah da Rusiyaya. Bəs Ermənistan yeni şəraitdə nəyə nail olmaq istəyir? Bakı ilə hərtərəfli sülh bağlamağa, Türkiyə ilə münasibətləri normallaşdırmağa, normal yaşamağa cəhd etmək daha asan olmazmı? Üstəlik, bunlar ən yaxın qonşulardır, uzaq dostlar deyil. Bu və ya digər şəkildə onlarla birlikdə yaşamalı olacaqlar. Tanınmış xarici ekspertlər bu mövzu ilə bağlı fikirlərini



”Caliber”-a bildiriblər. Ekspertlərin şərhlərini oxucularımıza təqdim edirik.

**”WeltTrends” Beynəlxalq Siyasət İnstitutunun (Potsdam, Almaniya) professoru Aleksandr Rahr**

”Müharibədən sonrakı Almaniyanın təcrübəsinə əsaslanaraq yalnız təsdiq edə bilərəm ki, böyük və hətta daha kiçik bir ölkənin əsas diplomatiyası ilk növbədə yaxın qonşularla barışıq və məharətlə yanaşı yaşamağa yönəlməlidir.



Tarix yalnız güclü xarici qüvvələrin ”müdafiəsinə” güvənmək öz suverenliyindən məhrum olmaq faktları ilə doludur. Fransa, Polşa və Beniluks ölkələri ilə dinc yanaşı yaşamaq barədə razılığa gəlmək üçün hər şeyi edən müharibədən sonrakı Almaniyanın nümunəsi burada uyğun gəlir. Bu, Almaniyanın yeni Avropa düzəninə inteqrasiyasına kömək etdi”,- deyə A. Rahr vurğulayıb.

**Şərqi Avropa Təhlükəsizlik İnstitutunun (Kiyev) idarə heyətinin rəhbəri Anatoli Pinçuk**

A.Pinçuk öz növbəsində qeyd edib ki, etnik zəmində ərazi münaqişələri ən çətin olanıdır. Onların həlli yalnız vicdanlı danışıqlar əsasında mümkündür.

”Başa düşdüyüm qədər, Ermənistan rəhbərliyi həm ərazi hüquqları, həm də öz qüvvələri, o cümlədən hərbi sahədə bağlı öz zəifliyini hiss edir. Beləliklə, zamin tapmaq istəyir. Amma Fransanın Ermənistana zamin olmasında müəyyən məntiq varsa, o zaman Rusiya ermənilərdən sadəcə olaraq öz məqsədləri üçün istifadə edir”,- ukraynalı analitik bildirib.



**Sankt-Peterburq Dövlət Universitetinin professoru Stanislav Tkaçenko**

”Ermənistanın davranışını yönləndirən iki motiv görünür. Birincisi, ölkənin təhlükəsizliyi üçün ən vacib vəzifənin (Azərbaycanla razılaşma və beynəlxalq hüquq müstəvisində münaqişəyə son qoyulması) həllinin ləngiməsi 30 ildən artıqdır davam edən münaqişənin inersiyasından qaynaqlanır. Ermənistanın ictimai rəyi sülhə doğru hər hansı addımı Azərbaycana güzəşt kimi qəbul edir, ona görə də belə addımlar nadir hallarda atılır və çox vaxt geri çəkilmə və ya uzun fasilə ilə müşayiət olunur.

İkincisi, Ermənistan müxtəlif vasitəçilərə və potensial ”köməkçilərə” müraciət etməklə gələcəkdə özünün çoxvektorlu diplomatiyasının əsasını qoyur. Planetin bütün kiçik dövlətləri öz suverenliklərini qoruyaraq bu şəkildə hərəkət edirlər.

Ermənistan son vaxtlara qədər təhlükəsizliyini yalnız Rusiyaya güvənirdi. Lakin belə bir siyasət ona bir növ sabitlik bəxş etsə də, İrəvanı Rusiyanın ölkə daxilində və beynəlxalq münasibətlər sferasında fırtınalı və bəzən ziddiyyətli siyasətindən tamamilə asılı vəziyyətə saldı. Hətta bu gün İrəvanın Brüssel, Paris və Vaşinqtona müraciət etmək cəhdləri xaotik görünsə də, onlar əlaqələrin şaxələndirilməsi və daha geniş və daha sabit ”dostlar dairəsi”nin formalaşdırılması strategiyasına yaxşı uyğun gəlir”,- S.Tkaçenko bildirib.

*Tərcümə - Elçin*

# “Makron Cənubi Qafqazdakı incəlikləri dərk etmir”



***“Fransa dövlətində ermənipərəst qüvvələr, erməni lobbisi çoxdur. Fransa münaqişənin həlli ilə bağlı hər zaman ermənipərəst mövqedən çıxış edib". Bu fikirləri SİA-ya açıqlamasında siyasi ekspert Vüqar Əhmədov bildirib.***

Onun sözlərinə görə, yeni vaxtaşırı ermənipərəst mövqe ilə bağlı Fransanın dövlət başçılarının açıqlamaları olub və Azərbaycan ictimaiyyəti tərəfindən bu sərt qarşılanıb. Lakin bu son 28-29 ildə, yeni Qarabağ münaqişəsinin həlli dövründə baş verib: ”Nəzərə almaq lazımdır ki, o dövrlə indiki dövr arasında çox fərq var. Yeni reallıqlar yaranıb, vəziyyət, situasiya dəyişib. Azərbaycan və Türkiyə əvvəlki kimi deyillər. Bu dövlətlər artıq güclənib və regionda yeni qaydalar diqtə edirlər.

44 günlük qalibiyyətimiz də məhz bundan irəli gəlir. Lakin çox təəssüf ki, Makron regional məsələləri, Cənubi Qafqazdakı incəlikləri dərk etmir. Əvvəlki sələflərindən qalanTürkiyəyə, Azərbaycana qarşı qərəzli mövqedən, ermənipərəst mövqe çıxış etməyə davam edir. Bu da Sarkozinin qeyri-ciddiliyindən xəbər verir. Əvvəlki Fransa prezidentləri türklərə əngəl olublar. Qarabağ münaqişəsi zamanı hər zaman Ermənistanın tərəfini tutublar. İndi situasiya tamam dəyişib.

Dünyanın güc mərkəzləri, eyni zamanda Avropa İttifaqı görüşlərə Azərbaycanın özləri dəvət edirlər. Azərbaycan isə bu xoş davranışları müsbət qarşılayır, bu danışıqlara gedir. Əlbəttə ki, Azərbaycan Prezidenti Avropa İttifaqı Prezidentinin dəvəti ilə bu sülh danışıqlarında iştirak edir. Lakin biz görürük ki, Avropa İttifaqı bir kənarda qalıb, Fransa burada situasiyanı ələ almağa çalışır. Fransa burada konstruktiv yox, destruktiv mövqe tutur. Sülh prosesini pozmağa çalışır. Danışıqlara kölgə salmaq istəyir. Bu nöqteyi-nəzərdən deyə bilərik ki, Fransa danışıqlarda vasitəçi rolunda çıxış etmir. Bu addımları ilə Makron öz ölkəsinin reputasiyasına ziyan vurur, həmçinin Avropa İttifaqının vasitəçilik missiyasına kölgə salır”.

*Abutel İlhamqızı*

ŞƏRH




*İlham Əliyev: "Füzuli şəhəri işğalçılardan azad edilib, Füzuli bizimdir, Qarabağ Azərbaycandır!"*



# 44 günlük müharibənin rəşadətli qələbəsi

Dünyada söz sahibi olan Azərbaycan Cənubi Qafqazın lideri statusunu daşıyır. Tam müstəqil siyasət yürütməsi də respublikamızın beynəlxalq imicinə müsbət təsir edən əsas amillərdəndir. Sevindirici haldır ki, bu gün Azərbaycan Zəfər çalmış bir xalq, dövlət olaraq da dünyada tanınır. 30 ilə yaxın düşmən tapdağı altında olan torpaqlarımızın işğaldan azad edilməsi və Vətən müharibəsindəki Qələbə Azərbaycanın beynəlxalq nüfuzunu daha da yüksəldib. Bu qələbə Cənab Prezident İlham Əliyevin qətiyyəti, xalqımızın inamı və şəhidlərimizin qanı bahasına əldə olundu. Ali Baş Komandanımızın rəhbərliyi ilə ordumuz Ermənistana böyük zərbə vurdu və əzəli torpaqlarımız işğaldan azad olundu. Ulu Öndərin məhvolma təhlükəsindən xilas edib inkişaf yoluna çıxardığı Azərbaycan dövləti sözün əsl mənasında, daha da möhkəmlənib. Qazandığımız Zəfər Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsinin, xalq-iqtidar birliyinin təntənəsidir. XXI əsrin müharibəsini aparan Azərbaycan tarixinə Zəfər gününü yazdı. 44 gün davam edən Vətən müharibəsində Azərbaycan Ordusu işğal altında olan ərazilərimizi düşməndən azad edərək, tariximizə Qələbə yazdı. Bu gün Azərbaycan torpaqlarında üçrəngli bayrağımız dalğalanır. Azərbaycan ordusunun əzmi, qətiyyəti, peşəkarlığı, vətənpərvərliyi təcavüzkar erməniləri torpaqlarımızdan təmizlədi. Noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş nazirinin birgə imzaladığı bəyanatla, 10 noyabr 2020-ci il tarixində Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olundu.

## ”ŞANLI AZƏRBAYCAN ORDUSU ÖZ XİLASKARLIQ MİSSİYASINI UĞURLA DAVAM ETDİRİR”

Əlbəttə ki, rəşadətli ordumuzun bölmələrinin işğaldan azad olunan rayonlarda Azərbaycan bayrağını qaldırması bizlərə fəxarət hissini yaşatdı. 30 ilə yaxın idi ki, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan tarixi torpaqları olan Dağlıq Qarabağ və onun ətrafında yerləşən 7 rayon Ermənistanın işğalı altında idi. Bu işğal və etnik təmizləmə siyasəti nəticəsində torpaqlarımızın 20 faizi işğal edilmiş və 1 milyondan çox azərbaycanlı məcburi köçkün, qaçqın vəziyyətində yaşayırdı. Artıq məcburi köçkünə dönmüş soydaşlarımızın üzərindən bu statusun götürülməsi hər kəsin sevincinə səbəb oldu.İki il bundan əvvəl tarixin bu günü Füzuli rayonunun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndləri və Füzuli şəhəri düşmən tapdağından azad olundu. Azərbaycan Prezidenti İlham Əliyev 17 oktyabr 2020-ci il tarixində xalqa müraciətində ”Şanlı Azərbaycan Ordusu öz xilaskarlıq missiyasını uğurla davam etdirir. Son günlər ərzində mən xalqıma xəbər verərək, yeni azad edilmiş kəndlərin adlarını açıqlamışdım. Bu gün də böyük məmnunluq hissi ilə, böyük sevinc hissi ilə azad edilmiş növbəti yaşayış məntəqələrinin adlarını əziz xalqıma çatdırmaq istəyirəm. Bu gün Füzuli rayonunun aşağıdakı yaşayış məntəqələri işğalçılardan azad edilib - Qoçəhmədli kəndi, Çimən kəndi, Cuvarlı kəndi, Pirəhmədli kəndi, Musabəyli kəndi, İşıqlı kəndi, Dədəli kəndi və Füzuli şəhəri. Füzuli şəhəri işğalçılardan azad edilib, Füzuli bizimdir, Qarabağ Azərbaycandır!”- deyə bildirmişdir.

Cənab Prezident onu da bildirmişdir ki, bəziləri hesab edirdi ki, Füzuli şəhərinn işğaldan azad etmək mümkün deyil. Hətta ən tanınmış hərbi mütəxəssislər də belə fikirdə idi ki, Füzulini götürmək, onu işğaldan azad etmək üçün bəlkə aylarla vaxt lazım olacaq və bu əməliyyat uğurla nəticələnəcək-nəticələnməyəcək hələ böyük sual altında idi: ”Ancaq müzəffər Azərbaycan Ordusu bu şərəfli missiyanın öhdəsindən gələ bildi və qısa müddət ərzində Füzuli rayonunun əksər kəndləri və Füzuli şəhəri düşmənin tapdağından azad edildi. Füzuli şəhəri deyəndə, əlbəttə, biz hamımız bilməliyik ki, şəhərdən bir şey qalmayıb, əsər-əlamət qalmayıb, bir dənə də salamat bina qalmayıb. Çünki otuz il ərzində o vəhşilərin əlində idi, yırtıcı heyvanların əlində idi, çaqqalların əlində idi. Bütün binalar sökülüb, dini abidələrimiz sökülüb, hər şey talan edilib, evlərin dam örtükləri, pəncərələri, əşyaları, hər şey. Sanki vəhşi bir qəbilə bu şəhəri zəbt etmişdir”. Ardıcıl olaraq Azərbaycan Prezidenti, Ali Baş Komandan bizə qələbə xəbərlərini çatdırırdı. Hər günü böyük həyəcanla gözləyirdik. Onlarla qəsəbə və kəndlərimizin, eləcə də şəhərlərimizin azad olunmasının xəbərini yaşamaq xoşbəxliyini yaşayırdıq. Dövlət başçısının hər gün ”Twitter” hesabında işğaldan azad edilmiş yeni kəndlərin, şəhərlərin adları yazılırdı. Bu, hər kəsi sevindirirdi. Hər dəfə xalqımız Ali Baş Komandanın xalqa müraciətini səbirsizliklə gözləyirdi. ”Bir daha demək istəyirəm ki, biz xoşbəxt insanıq, bizim nəslimiz xoşbəxtdir ki, bu sevincli günləri görə bilirik. Mən özümü xoşbəxt insan hesab edirəm ki, bu sevincli xəbərləri doğma xalqıma çatdırıram. Ali Baş Komandan kimi bütün işlərə rəhbərlik edirəm və Azərbaycan xalqını əmin etmək istəyirəm ki, bundan sonra da öz fəaliyyətimdə ölkəmizin, xalqımızın milli maraqlarını qorumaq üçün əlimdən gələni əsirgəməyəcəyəm. Heç bir təhdid, heç bir hədə, heç bir təzyiq mənim iradəmə təsir edə bilməz. Bizim işimiz haqq işidir. Biz öz torpağımızda vuruşuruq, öz ərazi bütövlüyümüzü bərpa edirik.”- deyə Prezident müraciətində bildirmişdir. Azərbaycan bayrağının işğaldan azad olunan torpaqlarımızda ucaldılması hər kəsin 30 ilə yaxın bir zamanda gözlədiyi möhtəşəm hadisə olaraq qan yaddaşımıza yazıldı. Davam edən əməliyyatlar nəticəsində isə 20 oktyabrda Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı, Saracıq, 21 oktyabrda Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndləri, 28 oktyabrda Mandılı, 7 noyabrda Yuxarı Veysəlli, Yuxarı Seyidəhmədli, Qorqan, Üçüncü Mahmudlu, Qacar və Divanalılar və digər tarixlərdə bir neçə kəndi də Azərbaycan Silahlı qüvvələri tərəfindən Ermənistanın işğalından azad olundu. Bu tarixlər Füzulinin tarixində hər zaman yaşanacaq günlər kimi əbədiləşdi.

## AZƏRBAYCAN XALQI DAHA BİR ŞANLI QƏHRƏMANLIQ SALNAMƏSİ YAZARAQ, ÖZÜNÜN QALİB XALQ OLDUĞUNU BÜTÜN DÜNYAYA SÜBUT ETDİ

Əlbəttə ki, Füzuli əməliyyatı Azərbaycan Ordusunun İkinci Qarabağ müharibəsində cənub-şərq cəbhəsində baş vermiş ən əhəmiyyətli döyüşlərdən biri kimi tarixə düşdü. Bu qələbənin qazanılmasında Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı. 1993-cü il 23 avqust tarixində Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunan Füzulinin 27 illik həsrətinə son qoyuldu. 1988-ci ildən başlayan Ermənistan təcavüzünə qarşı mübarizədə minlərlə füzulili döyüşmüş, yüzlərlə füzulili şəhid olmuş, yaralanmış, itkin düşmüşdür. Füzulinin 1.100-dən çox şəhid və itkini, 113 girovu, 1450 nəfər müxtəlif dərəcəli əlili var. Füzuliyə erməni təcavüzü nəticəsində 36.361 nəfər uşaq zərər çəkmiş, onlardan 155 nəfəri yetim qalmışdır. 55 min nəfərə yaxın füzulili öz doğma torpaqlarından qovulmuşdur. Artıq neçə illər idi ki, Azərbaycanın işğal altında olan torpaqlarından yazır və hər bir rayona erməni təcavüzkarlarının vurduğu maddi və mənəvi ziyanı vurğulayırdıq. Və hər dəfə də tezliklə işğal tariximizi qələbə, zəfər tarixinin əvəzləyəcəyi günə inanırdıq. İnamımız reallaşdı. 44 gün ərzində Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuz bütün dünyaya öz qüdrətini, gücünü nümayiş etdirdi. Noyabrın 8-də 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edildi. Bəli, bu gün Azərbaycanın güclü ordusu, yenilməz ordusu var. ”Bu 17 il ərzində mənim işimin əsas hissəsi ordu quruculuğuna həsr edilmişdir ki, biz ordumuzu necə gücləndirək, ordumuzu ən müasir silahlarla təchiz edək”, - deyən dövlət başçısı bunun asan məsələ olmadığını qeyd etmişdir.

## ABADLIQ-QURUCULUQ MEYDANINA ÇEVRİLƏN FÜZULİ YENİDƏN QURULUR

Prezident Füzuliyə səfərləri tarixi hadisələrlə yadda qalır. Füzuli Beynəlxalq Hava Limanında istifadəyə verilməsi, Dövlətyarlı kəndində ”Ağıllı kənd”in təməlqoyma mərasimi, Rəqəmsal Stansiya İdarəetmə Mərkəzinin təməlqoyma mərasimi, Çoxmənzilli yaşayış məhəlləsinin təməlqoyma mərasimi və s. Füzulinin tezliklə abadlaşmasından xəbər verir. Füzuli şəhərində Peşə Liseyinin təməlinin qoyulması da bu istiqamətdə həyata keçirilən layihələrdən biridir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci Xanım Mehriban Əliyeva mayın 10-da Füzuli rayonuna səfər çərçivəsində Füzuli şəhərində inşa olunacaq Peşə Liseyinin təməlini qoyublar. Peşə Liseyinin ərazisi 3,2 hektar sahəni əhatə edəcək. Kompleksdə tədris, laboratoriya təcrübələri, idman binaları və meydançası yaradılacaq. Burada, həmçinin avtomobil təmiri emalatxanası, avadanlıq və texnika, təsərrüfat anbarları, təsərrüfat qurğusu, praktik təlimlər qurğusu da inşa ediləcək. Kompleksin elektrik enerjisi ilə fasiləsiz təminatı üçün transformator yarımstansiyası da quraşdırılacaq. Füzuli şəhər Peşə Liseyinin inşası zamanı yaşıllıq zolaqlarının yaradılması xüsusilə diqqətdə saxlanılıb. Belə ki, yaşıllıq sahəsi bu kompleksin ərazisinin 43,7 faizini təşkil edəcək. Burada yaradılacaq idman meydançasının sahəsi 540 kvadratmetr olacaq. Lisey ildə 800-yə yaxın tələbə qəbul etməklə yanaşı, 1000-dək tələbə üçün qısamüddətli kurslar və ömürboyu təhsil proqramları təmin etmək imkanında olacaq. Ən əsası isə onu qeyd edək ki, işğaldan azad olunan ərazilərimizdə kompleks tədbirlərin həyata keçirilməsi bu ərazilərin müasir zamanın tələblərinə uyğun qurulmasına və Böyük Qaydışımızla əzəli Qarabağ torpağında insanların rahat, firavan yaşamasına istiqamətlənib. Bu gün işğaldan azad olunan ərazilərimizdə, eləcə də Füzulidə abadlıq-quruculuq işlərinə başlanılıb. Tezliklə Füzuli qaynar həyatına dönəcək.

***Zümrüd BAYRAMOVA***



# "Fransanın vasitəçiliyinə ehtiyac yoxdur"

**POLİTOLOQDAN SƏRT REAKSİYA**

"Fransa prezidenti Emmanuel Makron son müsahibəsində anti-Azərbaycan və qatı ermənipərəst mövqeyi ilə Parisin vasitəçiliyinə zərbə vurub". Bu sözləri S?A-ya açıqlamasında politoloq Elxan Şahinoğlu deyib.



Onun sözlərinə görə, Praqada Azərbaycan, Ermənistan, Avropa İttifaqı və Fransa liderləri arasında dördlü format əsasında görüş və müzakirələrin aparılması ideyası Makrona məxsus idi: "Vasitəçi tərəfsiz olmalıdır. Ancaq Makron dözmədi və növbəti dəfə bu adi prinsipi pozdu. Halbuki, ondan əvvəlki prezidentlər Jak Şirak, Nikola Sarkozi və Fransua Olland ermənilərə simpatiyalarına baxmayaraq, Azərbaycan əleyhinə açıqlamalardan çəkinirdilər. Makron müsahibəsində Qarabağı "mübahisəli ərazi" adlandıraraq deyib ki, bu bölgə Ermənistanın "mərkəzindədir". Makron Ermənistanla Azərbaycanın xəritəsini səhv salıb, diqqətlə baxsaydı, Qarabağın Azərbaycanın içərisində olduğunu və Ermənistanla, sadəcə, dəhlizi olduğunu görərdi. Fikrimcə, rəsmi Bakı Makronun prezidentliyi dövründə Fransanın vasitəçilik təşəbbüslərindən imtina etməlidir. Makron ermənipərəst mövqeyi ilə yalnız ölkəsinin vasitəçilik imkanlarına zərbə vurmadı, eyni zamanda, elə Ermənistana da ayı xidməti göstərdi.

Politoloq sözlərinə əlavə edərək qeyd etdi ki, çünki Makron müsahibəsində guya Rusiyanın Azərbaycanı dəstəklədiyini vurğulayaraq Parisin ermənilərin yanında yer aldığını bildirib: "Rusiya Xarici İşlər Nazirliyi Makronu tənqid edən bəyanat yayıb. Bu bəyanat həm də İrəvana mesajdır ki, Makrona minnətdar olsanız, haminiz Kremlin qəzəbinə tuş gələcəksiniz. Makronun müsahibəsində "Fransa Azərbaycandan qaz almır" yalanı da Fransaya baha başa gələ bilər. Necə yəni almır? Fransanın nəhəng "Total" şirkəti Azərbaycanın "Abşeron" yatağında əsas operatorlardan biridir, Dövlət Neft Şirkəti ilə birgə 50 faiz paya malikdir. Makron belə davam edərsə, pay bölgüsünə yenidən baxmaq lazım gələcək. Azərbaycanla Ermənistan arasında 3 vasitəçi - Rusiya, ABŞ və Avropa İttifaqı var. Fransa dördüncü vasitəçi kimi özünü sırımağa çalışır. Makronun ermənipərəst mövqeyini əlimizdə rəhbər tutaraq Parisin vasitəçi təşəbbüslərindən imtina emtəliyik. Fransa Avropa İttifaqının üzvüdür, odur ki, Brüsselin vasitəçiliyi yetərlidir".

*Qönçə Quliyeva*

# "Paşinyanın sözü və əməlləri bir-birinə uyğun gəlmir"

"Erməni tərəfinin danışıqlara münasibətdə sərgilədiyi mövqe Paşinyan iqtidarının qarşısında Qərbdəki himayədarları tərəfindən qoyulan tələb və təkliflərlə əlaqədardır. Paşinyanın 4 il əvvəl Ermənistanda hakimiyyətə gəlməsi erməni cəmiyyətinin sosial, iqtisadi tələb və ehtiyaclarından qaynaqlansa da, onun iqtidara gəlişində geosiyasi amillər həlledici rol oynamışdır. ABŞ-ın indiki iqtidarına yaxın şəxs, filantrop və milyarder Sorosun maliyyə dəstəyi ilə hakimiyyətə gələn Paşinyanın qarşısında himayədarları tərəfindən ilk günlərdən konkret vəzifə və tələblər qoyulmuş, hədəflər müəyyənləşdirilmişdir". Bunu "Səs" qəzetinə açıqlamasında politoloq Elşən Manafov deyib.



Onun sözlərinə görə, Cənubi Qafqaz uğrunda Qərb və Rusiya arasında gedən və geosiyasi məzmun və səciyyə təşkil edən qarşıdurmada Paşinyan Ermənistanı tədricən Rusiyanın təsir dairəsindən çıxarmalı və bölgədə Qərbin nüfuz dairəsinin genişlənməsi üçün bəlli addımlar atmalı idi: "İqtidara gəldikdən sonra Ermənistanı Rusiyanın həlledici rola malik olduğu KTMT dan, habelə AİB dən uzaqlaşdıra bilməyən Paşinyan bilərəkdən, özü də Qərbdəki bəlli dairələrin sifarişi ilə Azərbaycanla münasibətlərin gərginləşdirilməsi yolunu tutdu, onun "Qarabağ Ermənistandır" kimi avantürist bəyanatı danışıqlara dalana dirədi, Qərbin sifarişi ilə bölgədə Rusiya və Türkiyənin hərbi qarşıdurmaya getmə ehtimali yarandı".

E.Manafov onu da bildirib ki, Azərbaycanın hərtərəfli və uzaqgörən siyasəti nəticəsində dövlətimizin hər iki tərəflə münasibətlərdə strateji tərəfdaşlıq və əməkdaşlığa önəm verdiyi dövlətlər, onların siyasi elitaları qarşıdurmadan çəkinməyi bacardılar: "Hətta Cənubi Qafqazın və digər bölgələrin ağrılı problemlərinin həlli sahəsində əməkdaşlığa keçə bildilər. Rusiya Azərbaycan tərəfinin ehtiyatı və təmkinli hərəkətlərinə rəğmən Ermənistanla başlanmış olan mübarizədə kənarda qaldı, Azərbaycanın öz ərazi bütövlüyü uğrunda apardığı müharibənin onun beynəlxalq hüquqla təsdiq olunmuş haqqı olduğunu bəyan etdi, Azərbaycan ordusunun 44 günlük savaşda əldə etdiyi qələbə isə bölgədə yeni geosiyasi reallıqların yaranmasına gətirib çıxartdı. Qərb təbii ki, bu reallıqları həzm edə bilmir, ona görə də münaqişə tərəfləri arasında danışıqlarda təşəbbüsü ələ almaq, Rusiyanı proseslərdən kənarda qoymaq, onu çıxdaş etmək istəyir. Buna görə də Ermənistanda anti-Rusiya ovqatının artırılması istiqamətində ardıcıl iş aparılır, Qərb, ilk növbədə ABŞ və Fransa siyasi yetkililəri Ermənistan iqtidarına verdikləri dəstək və preferesləri onu danışıqlarda ikili standartlardan çıxış etməyə sövq edirlər. Azərbaycan iqtidarının çoxvektorlu, müstəqil xarici siyasəti, onun Qərbdən olan təzyiqlərə baxmayaraq Rusiyaya qarşı Türkiyə kimi iqtisadi sanksiyalara qoşulmaması, Rusiyaya tətbiq edilən sanksiyaların fonunda bir çox sahələrdə, xüsusilə logistika sahəsində əməkdaşlığın davam etdirilməsi Rusiyanı iqtisadi blokadaya salmaq istəyən Qərbdəki bəlli dairələri qane etmədiyindən Paşinyan kimi satellit siyasətçilərin vasitəsilə danışıqlara əngəl törətməyə çalışırlar. Nəticədə, Qərbdəki bəlli dairələrin dəstəyinə ümid edən Paşinyanın sözü və əməlləri bir-birinə uyğun gəlmir".

*Gülyana*

# Makron Fransanın ənənəvi siyasi fahişəlik obrazını rəsmiləşdirib





## *Bu ölkə öz səhvini anlamayana qədər əsla və heç vaxt (!) vasitəçi rolunu oynaya bilməz!*

***Fransa prezidenti Emmanuel Makronun bu dəfə daha açıq fonda və tonda Azərbaycana qarşı "təzyiq mexanizmini" işə salması, əslində, bu ölkənin onilliklər boyu anti-Azərbaycan xarakterli davranış kodeksində yer aldığını bir daha, eləcə də geniş spektrda sübut edir. Əbəs deyil ki, özünü Avropanın göbəyi və demokratiya dəyərləri kontekstində təqdim edən, əslində isə bütün dünyaya sirr olmayan "fransız fahişəliyi" ifadəsini tam isbatı ilə təsdiqləyən müsyö Makron siyasi diplomatik dairələrin pərdəarxası məqamlarında gülüş və istehza obyektinə çevrilməkdədir.***

### Hazırda ortada olan daha bir fakt budur ki...

Və bu gün Fransa prezidentinin kulis arxasından verdiyi tapşırığı əsasında Fransa Senatının anti-Azərbaycan xarakterli qətnamələr hazırlayaraq səs verməyə çıxarması da bu cür qənaətə həlməyə kifayət qədər zəmin yaradır - Makron Fransanın ənənəvi siyasi fahişəlik obrazını rəsmiləşdirib!

Biz burada 44 günlük Vətən müharibəsinin başlanma səbəbləri barədə uzun-uzadı və dəqiq mülahizələrlə yenidən danışmaq fikrində deyilik, çünki həmin mövzu barədə dünya ictimaiyyəti kifayət qədər məlumatlıdır və 44 günlük İkinci Qarabağ müharibəsi dövründə bir sıra aparıcı, nüfuzlu beynəlxalq siyasi dairələr Azərbaycanın haqq mübarizəsini öz torpaqlarında apardığını bəyan etdilər.

Hazırda ortada olan daha bir fakt budur ki, Ermənistanla sərhədlər müəyyən olunmayıb, hələ də delimitasiya edilməmiş sərhədlərin yerləşdiyi ərazilərimizdə (Xankəndi və ətrafı, Zəngəzur-R.R.) qanunsuz erməni silahlı birləşmələrinin qalması davam edir. Belə bir zamanda fransızların siyasi fahişəlik obrazı "vasitəçilik missiyası" fonunda sülhə yaxın olan prosesi əngəlləməyə cəhd edir, özü də prezident və Senat səviyyəsində (?!-R.R.)

### Fransa Senatının hazırladığı qətnamə layihəsi - "Azərbaycandan ixrac edilən neft və qaza embarqo"

Gəlin məsələyə daha dəqiq rəng verək. Məlum olub ki, Fransa Senatının 6 üzvü (hər birinin erməni lobbisi və ələlxüsus Makronla kifayət qədər yaxın münasibətləri mövcud-dur-R.R.) noyabrın 15-də müzakirəyə çıxarılacaq qətnamə sənədi hazırlayıblar. Həmin qondarma qətnamə sənədində isə Azərbaycanın ünvanına çoxsaylı ittihamlar yer alıb, eləcə də Fransa hökuməti ilə yanaşı, Avropa Şurasına, Avropa İttifaqına, Avropa Parlamentinə müraciət də yer alıb. Sözügedən müraciət isə "Azərbaycandan ixrac edilən neft və qaza embarqo" tələbi yer almaqdadır.

Qondarma qətnamə layihəsi bəri başdan belə bir təəssürat yaradır - bilavasitə və təktərəfli olaraq Ermənistanın mövqeyini dəstəkləmək, erməni maraqlarını müdafiə etmək, əzəli sərhədlərimizin bərpa olunmasına maksimum maneələr yaratmaq və s.

### Rəsmi Paris unudur ki, onun qarşısında ATƏT-in Minsk qrupunun günaşırı səfər etdiyi vaxtların Azərbaycanı və acı bağırsaq kimi uzatdığı Qarabağ problemi dayanmayıb...

Təkcə bu faktlar sübut edir ki, sözügedən qətnamə milyonlarla azərbaycanlıların (!) 30 il ərzində verdiyi qurbanlarının, ağrıacı hisslərinin, yaxınlarını itirmək dəhşətlərinin üzərindən çalın-çarpaz xətlər çəkir. Və ən əsası, belə bir farnsızca yanaşma tərzi aşkar və qeyd-şərtsiz etnik dözümsüzlük, həmçinin irqçilik, açığını desək, faşizm ideoloji prinsiplərini qabardır. Dünya isə Fransanın Əlcəzair vəhşiliklərini unutmayıb...

### Belə getsə, madam Brijit Makron da erməniləri öz cavan əri Emmanuelə qısqanmalı olacaq...

Belə olan halda isə rəsmi Paris unudur ki, onun qarşısında ATƏT-in Minsk qrupunun günaşırı səfər etdiyi vaxtların Azərbaycanı və acı bağırsaq kimi uzatdığı Qarabağ problemi dayanmayıb, onun qarşısında qətiyyətli, müstəqilliyi ilə öz sözünü deyən və əsla bənzər yanaşmaları yaxınına belə buraxmayan rəsmi Bakı faktoru dayanıb!!!

***Rövşən RƏSULOV***

***P.S.** Rəsmi Bakı bütün bunlardan sonra əsla və heç vaxt Makronun və Senat siçovullarının var-gəllərini, ciddi-cəhdlərini nəinki yaxınına buraxmayacaq, eləcə də öz yekün sözünü məhz Avropanın yüksək tribunalarından deyəcək. Makron isə yaxşı olardı ki, qarşıdan gələn soyuq Avropa qışını yaşlı və əldən düşmüş arvadının hansı bucağında qızınaraq keçəcəyini özünə dərd etsin. Belə getsə, madam Brijit Makron da erməniləri öz cavan əri Emmanuelə qısqanmalı olacaq...*

# İnsanlığa qarşı amansız erməni terroru: Gəncə terroru

***“Bu gecə erməni təcavüzkarları Gəncəyə xaincəsinə hücum ediblər. Niyyət sadə və eyni zamanda, dəhşətlidir - mümkün qədər çoxsaylı dinc sakinləri məhv etmək, panika yaratmaq, Azərbaycan xalqını qorxutmaq. Lakin təcavüzkar heç vaxt öz çirkin məqsədlərinə nail olmayacaq. Bu şanlı şəhərin sakinləri ruhən çox güclüdürlər! Gəncə - Nizamidir, Məhsətidir, Vazehdir! Lakin Gəncə təkcə Azərbaycanın mədəni irsi deyil. Gəncə - qədim dövlətçiliyimizin beşiyidir. Bu, sarsılmaz dözüm, mərdlik və igidlik rəmzidir! Gəncə Cavadxanın yurdudur. Bu şəhər Şərqdə ilk demokratik cümhuriyyətin müstəqilliyi uğrunda sona qədər vuruşmuş şəhərdir.***

Gəncə Azərbaycanın döyünən ürəyidir və heç kəs heç vaxt onun sakinlərinin məğrur ruhunu sındıra bilməz!”. Bu fikirlər 17 oktyabr 2020-ci ildə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Ermənistanın Gəncədə törətdiyi terror aktı ilə bağlı rəsmi ”Instagram” səhifəsində yer almışdır. Beynəlxalq hüququn norma və prinsipləri, o cümlədən beynəlxalq humanitar hüquq, eləcə də oktyabrın 10-da Moskvada qəbul olunmuş humanitar atəşkəsi kobud şəkildə pozaraq mülki insanların məqsədli şəkildə öldürülməsi müharibə cinayəti və insanlıq əleyhinə cinayətdir. Ermənistanın silahlı qüvvələri sentyabrın 27-dən oktyabrın 17-dək döyüş bölgələrindən kənarda yerləşən Gəncə və Mingəçevir şəhərlərini, digər yaşayış məntəqələrini mütəmadi olaraq raket atəşinə tutaraq mülki əhaliyə qarşı müharibə cinayətləri törətdilər. Rusiyanın vasitəçiliyi ilə oktyabrın 10-da humanitar atəşkəs razılaşmasını da kobudcasına pozan Ermənistan silahlı qüvvələri Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəni bir neçə dəfə ”Elbrus” ballistik raketlərlə bombaladılar. Oktyabrın 17-də gecə saatlarında Gəncəyə edilən növbəti qəddar hücum nəticəsində 13 mülki şəxs, o cümlədən 2 uşaq həyatını itirdi, 45-dən çox insan ağır yaralandı. Dinc əhaliyə qarşı törədilən bu amansızlıqlar müharibə cinayətidir. Gecə radələrində düşmənin törətdiyi bu vandal aktının cavabı isə dərhal verildi. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev oktyabrın 17-də səhər saatlarında xalqa müraciət etdi, dövlətimizin başçısı müraciətində düşmənə döyüş meydanında layiqli cavab verdiyimizi vurğuladı və Füzuli şəhərinin, rayonun bir sıra kəndlərinin işğaldan azad olunduğunu elan etdi. Bu, Ermənistana, onun rəhbərliyinin törətdiyi cinayətlərə ən tutarlı cavab oldu. Ardınca isə Azərbaycan Respublikası Müdafiə Nazirliyi döyüş meydanında düşmənin çoxlu sayda canlı qüvvəsinin və hərbi texnikalarının məhv edilməsi anlarını əks etdirən videogörüntüləri yaydı. Bu görüntülər də Gəncə terroru qurbanlarının qanının yerdə qalmadığını bir daha əyani şəkildə göstərmiş oldu. 44 günlük müharibədə Ali Baş Komandan demək olar ki, hər gün xalqımıza yeni-yeni qələbə xəbərlərini çatdırırdı və ordumuz hər gün işğaldan azad etdiyi torpaqlara üçrəngli bayrağımızı sancırdı. Gəncədə törədilən terror günü Füzulinin işğaldan azad edilməsi xəbərini alan xalqımız artıq Şuşada, Kəlbəcərdə, Laçında və digər işğal altındakı torpaqlarımızda Azərbaycan bayrağı dalğalanır xəbərlərini tezliklə ala bildilər.



## TƏCAVÜZKARIN AZƏRBAYCAN ORDUSU QARŞISINDA TOTAL ACİZLİYİNİN TƏZAHÜRÜ

Birinci vitse-prezident Mehriban Əliyeva Ermənistanın Gəncəyə növbəti raket hücumu ilə bağlı rəsmi ”Instagram” səhifəsində etdiyi daha bir paylaşımda belə yazırdı: ”Nə dərəcədə insanlıqdan uzaq, yırtıcı olmalısan ki, şəhərin heç bir hərbi infrastrukturun olmadığı yaşayış məhəllələrinə gecə vaxtı, sakinlər yatarkən raket zərbələri endirilməsi barədə növbəti dəfə əmr verəsən? Bu gecə Gəncəyə xaincəsinə edilən hücum təkcə Ermənistan hakimiyyətinin faşist mahiyyətinə və onun prinsipsizliyinə dəlalət etmir, həm də təcavüzkarın Azərbaycan Ordusu qarşısında total acizliyinin təzahürüdür. Dinc vətəndaşların məqsədyönlü şəkildə hədəfə alınması insanlığa qarşı cinayətdir. Bu cinayətə laqeyd qalmaq isə onun iştirakçısına çevrilmək deməkdir! Bu faciə nəticəsində həlak olanların ailələrinə və doğmalarına dərin hüznlə başsağlığı verirəm və bütün yaralıların tezliklə sağalmasını arzulayıram. Ulu Tanrı xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!”.

Terrorizm insanlığa qarşı yönəldilmiş bəladır və minlərlə insan terrorçuların törətdikləri əməllərin acı nəticələrini yaşamışdırlar. Əlbəttə ki, terrorçunun milliyyəti və sərhədi yoxdur. Ermənistan dövlətinin və erməni diasporasının maliyyə və təşkilati yardımı ilə dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən erməni terrorçu təşkilatlarının Azərbaycana qarşı apardıqları terrorçuluğun törətdiyi əməllərin qanlı izləri bizlərə yaxşı tanışdır. Ermənistanın insan tələfatına nail olmaq məqsədi həyata keçirdiyi terror aktları nəticəsində minlərlə günahsız insan həlak olmuşdur. Tarix boyu özgə torpaqlarına göz dikən və terrorçu əməlləri ilə qınağa çevrilən ermənilər günahsız insanların ölümünə səbəb olublar. Dili hibrit, yəni calaq dili, ərazisi, mədəniyyəti, mətbəxi, tarixi olmayan ermənilər tarixi, irsi, mədəniyyəti ilə dünyanın marağında olan bir dövlətlə Azərbaycanla qonşudurlar. Müasir dünyamız 200 il ilə müqayisədə ciddi şəkildə dəyişmiş olsa da təssüflər olsun ki, erməni cildi dəyişməyib. Ermənilərin hər bir hərəkəti, ümumilikdə siyasəti məkrlidir. Mülki əhalinin, xüsusilə qadınların və uşaqların, ahılların Ermənistan hərbi qüvvələrinin hədəfinə çevrilməsi onların tarixi kimliyinə söykənir. Vətən müharibəsinə qədər, eləcə də, həmin zamanda erməni terroçuların törətdikləri əməllər dünyanın gözü qarşısında baş verib.

## BMT-NİN UŞAQ HÜQUQLARI HAQQINDA KONVENSİYASININ MÜDDƏALARI KOBUD ŞƏKİLDƏ POZULUB

Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində, insan hüquqları kobudcasına pozulub, etnik təmizləmə siyasəti və terror aktları günahsız azərbaycanlının həyatına son qoyulub. 1994-cü ildə atəşkəs rejiminin elan olunmasına baxmayaraq, ermənilərin Azərbaycanda uşaqları qətlə yetirmələri hələ də davam edirdi. Bu, nə insanlığa, nə də beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən hüquqi normalara sığır. Terrorları törədən ermənilərin son illərdə və 44 günlük Vətən müharibəsi dövründə törətdikləri vəhşi əməlləri faşist ideologiyasının sahibi olmalarının təsdiqidir. İnsan hüquqları sahəsində mövcud beynəlxalq sənədlərə məhəl qoymayan Ermənistan müharibə zamanı mülki əhalinin qorunması haqqında 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyasının, BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının və digər sənədlərin müddəalarını kobud şəkildə pozmaqda davam edib.

2011-ci il martın 8-də düşmən snayperi tərəfindən səkkiz yaşlı Fariz Arzu oğlu Bədəlov qətlə yetirildi. 2016-cı il Aprel döyüşlərində düşmənin Tərtərin Həsənqaya kəndini atəşə tutması nəticəsində 2000-ci il təvəllüdlü Kəlbəcər sakini Həsənli Turanə Kamandar qızı dünyasını dəyişdi. 2017-ci ilin iyul ayının 4-də Ermənistan silahlı qüvvələri tərəfindən Füzuli rayonunun Alxanlı kəndində məskunlaşan mülki əhalinin yaşadığı yaşayış məntəqələrinin və mülki obyektlərin qəsdən 80 və 102 millimetrlik minaatanlardan və dəzgahlı qumbaraatanlardan atəşə tutulması nəticəsində, 1967-ci il təvəllüdlü yaşlı qadın Allahverdiyeva Sahibə və onun 2 yaşlı qız nəvəsi Quliyeva Zəhra həlak oldular. Təbii ki, mülki şəxslərin hədəfə alınması qəbuledilməzdir. Bu və ya digər faktlar Ermənistanın Azərbaycanın mülki əhalisinə, xüsusilə uşaqlara qarşı vandalizminin sonu deyildi. 44 günlük Vətən müharibəsində xalqımız erməni terrorlarının daha acı nəticələrini yaşamış oldular. İşğalçı Ermənistan silahlı qüvvələri oktyabrın 11-də cəbhə bölgəsindən və münaqişə zonasından kənar yerləşən Gəncənin mərkəzi hissəsində yerləşən yaşayış binalarını raket atəşinə tutması nəticəsində 3-ü qadın olmaqla 9 nəfər həlak oldu, 16 qadın, 6 azyaşlı olmaqla 35 nəfər yaralandı. Vurğulamaq yerinə düşər ki, müharibə dövründə Goranboy rayonunun Qızılhacılı kənd sakini 2011-ci il təvəllüdlü Həsənov Elcan Elgün oğlu və Ağcabədi şəhərindən olan 2015-ci il təvəllüdlü İbrahimova Ayan Rövşən qızı yaralandı. Erməni terroru nəticəsində Ağcabədi rayonunun Taynaq kənd sakini, 2006-cı il təvəllüdlü İsgəndərov Fərid Dilafət oğlu, Naftalan rayonunun Qaşaltı kənd sakinləri 2007-ci il təvəllüdlü Şəhriyar Qurbanov və 2006-cı il təvəllüdlü Fidan Qurbanova həlak oldular.

Ermənistan silahlı qüvvələrinin raket və artilleriya atəşinə məruz qaldığı yaşayış məntəqələrindən biri də Bərdə şəhəridir. Bərdə şəhəri 5, 8, 27, 28 oktyabr və 7 noyabr tarixlərində raket və ağır artilleriya hücumlarına məruz qalıb. 2020-ci il oktyabrın 5-də Bərdə şəhərinin mərkəzi küçələrinə və mərkəzi xəstəxananın yaxınlığına düşmüş raket mərmisinin qəlpələrindən 2 nəfər həlak olub, 6 nəfər yaralanıb, mülki infrastruktura külli miqdarda ziyan dəyib. Ümumilikdə isə Bərdə şəhərində törədilən terrorlar nəticəsində 28 nəfər həlak olub, 108 nəfər yaralanıb. 44 günlük Vətən müharibəsi dövründə erməni hərbçiləri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə Konvensiyaları və onların Əlavə Protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq Azərbaycanda mülki əhalinin sıx yaşadığı məntəqələrə zərbələr endirib. Artilleriya atəşi nəticəsində dinc sakinlərin evləri dağılıb, infrastruktura ciddi ziyan dəyib. Bütün bunlara baxmayaraq, Azərbaycan xaqqı 44 günlük müharibədə Zəfər qazandı. Ermənilərin dağıtdığı viran qoyduğu ərazilərimizdə bu gün böyük abadlıq-quruculuq işləri aparılır.

*Nəzakət ƏLƏDDİNQIZI*



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" çərçivəsində hazırlanıb.***

# Neftdən asılılığı necə azalda bilərik?

***Azərbaycanda iqtisadiyyatın diversifikasiya edilməsi məqsədilə qeyri-neft sektorunun inkişafına dəstək məsələsi dövlət başçısı və hökumət tərəfindən əsas prioritet elan edilib. Bu məqsədlə bir sıra sahələrə dövlətin maliyyə dəstəyinin verilməsi üçün bəzi addımlar atılıb. Kiçik və orta sahibkarlığın inkişafına yardım üçün güzəştli kreditlərin və subsidiyaların verilməsi təşkil olunub, müxtəlif güzəştlər edilib. Lakin buna baxmayaraq, hələlik tarazlı iqtisadiyyata nail olunmayıb. Bəs səbəblər nədədir, bunu necə etmək mümkündür? Bu yazıda bu suallara ekspertlərin köməyi ilə aydınlıq gətirməyə çalışacağıq.***

**Hökumətin prioritet elan etdiyi qeyri-neft sektorlarının seçim meyarlarına görə qiymətləndirilməsi**

| Sektorlar\Meyarlar | Sektorun digər sektorlarla əlaqəsi | Sektorun əməktutumlu olması | Sektorun ixrac potensialı | Sektorun idxalı əvəzetmə potensialı |
|---|---|---|---|---|
| 1. Kənd təsərrüfatı | Yüksək | Yüksək | Yüksək | Yüksək |
| 2. Balıqçılıq | Orta | Zəif | Yüksək | Yüksək |
| 3. Yeyinti sənayesi | Yüksək | Orta | Yüksək | Yüksək |
| 4. Yüngül sənaye | Orta | Orta | Orta | Orta |
| 5. Tikinti sənayesi | Orta | Orta | Orta | Orta |
| 6. Kimya sənayesi | Yüksək | Yüksək | Yüksək | Yüksək |
| 7. Cihazqayırma | Orta | Orta | Orta | Zəif |
| 8. Turizm sektoru | Orta | Orta | Zəif | Zəif |
| 9. Elektroenergetika | Orta | Zəif | Yüksək | Yüksək |
| 10. Təhsil sektoru | Orta | Yüksək | Zəif | Orta |

## *İqtisadi diversifikasiyada qeyri-neft sektorlarının klaster üsulu ilə düzgün seçilməsi və sağlam biznes mühiti kimi meyarlar əsas rol oynayır*

### İqtisadi şaxələndirmə üçün hansı vacib addımlar atılıb?

Azərbaycanda iqtisadiyyatın və ixracatın diversifikasiya olunmasına təsir göstərə biləcək 20-dən artıq qanun qəbul edilib. Bundan başqa, bəzi dövlət proqramları təsdiq olunub, müxtəlif fondlar yaradılıb.

Regionların sosial-iqtisadi inkişafi Dövlət Proqramlarının və bu kimi digər proqramların əsas məqsədi ölkədə qeyri-neft sektorunun inkişafının, iqtisadiyyatın diversifikasiyasının, tarazlı regional və davamlı sosial-iqtisadi inkişafın təmin olunması müəyyənləşdirilib.

Bu tədbirlər müəyyən müsbət nəticələr versə də, hələlik ÜDM-də, ixracda və dövlət büdcəsində neft sektorunun böyük üstünlüyünün azaldılmasına, başqa sözlə sektorial diversifikasiyaya nail olunmayıb. Ümumilikdə, ÜDM-in 1/3-i, büdcənin 55 faizi, ixracın 90 faizdən çoxu neftin bazasında formalaşır.

Regional diversifikasiyaya da hələlik nail olmaq mümkün olmayıb. Belə ki, ölkə ərazisinin təxminən 2,5 faizini təşkil edən Bakı-Abşeronda ÜDM-in ən azı 75 faizi formalaşır. Bu zonanın büdcə daxilolmalarında payı digər bütün iqtisadi rayonlar üzrə daxilolmalardan 9 dəfə çoxdur. Digər regionların büdcə daxilolmalarında payı ənənəvi olaraq 6-7 faizi keçmir.

Hökumətin sənədlərində diversifikasiyaya nail olmağın yolları kimi aşağıdakılar qeyd olunur:

-Qeyri-neft sektorunda idxalı əvəzləyən məhsul istehsalının genişləndirilməsi;

-Qeyri-neft məhsullarının ixracının artırılması və qeyri-neft sektorunda ixracın diversifikasiyasının təmin olunması;

-Ölkədə regional inkişafın təmin edilməsi, regionlar arasında tarazlı inkişafa nail olunması;

-İKT-nin və qabaqcıl istehsal texnologiyalarının tətbiqi sayəsində rəqabətədavamlı və yüksək texnoloji məhsulların istehsalı.

Bəs klaster yanaşma ilə prioritet götürüləcək qeyri-neft sahələri hansılar ola bilər və onların hansı perspektivləri var?

### Sektorların seçilməsində hansı mühüm faktorlar rol oynayır?

İqtisadi diversifikasiyada qeyri-neft sektorlarının düzgün seçilməsi meyarları əsas rol oynayır. Seçilən sahənin digər sektorlarla əlaqəsi nin olması mühümdür. Belə ki, prioritet seçilən sahə digər sektorların da inkişafı üçün lokomotiv rolunu oynamalıdır, onların da məhsulları üçün yeni tələb formalaşdırmalı və digər sektorların hazır məhsullarını istehlak etməlidir. Dünya üzrə o sektorlar yüksək "lokomotiv effekti"nə malik sahələr hesab edilir ki, onlar istehsal prosesində hər bir son məhsulun dəyərinin 50%-i qədər digər sektorların hazır məhsullarını istehlak edir.

Bundan başqa, seçilən sahənin əməktutumlu olması da vacib şərtdir. Burada söhbət birbaşa olaraq seçilən sektorda yaranacaq iş yerlərinin sayından, digər sektorlara pozitiv təsir nəticəsində onlarda yaranacaq iş yerlərindən və nəhayət, yüksək əməkhaqqının formalaşdıracağı "gəlir effekti" ilə yaranan lokal xidmətlərdən gedir.

Daha bir əhəmiyyətli məqam seçilən sahənin böyük ixrac potensialı ilə bağlıdır. Ölkənin digər bütün şərtlərlə yanaşı, müqayisəli üstünlüyə malik olduğu sahələr üzrə yüksək ixrac potensialına sahib ola biləcəyi güman edilir. Bu zaman konkret məhsulun ölkənin ümumi ixracındakı payının qlobal ixracdakı payına nisbəti də bir indikator kimi nəzərə alınmalıdır.

Nəhayət, seçilən sahənin idxalı əvəzetmə potensialı nəzərə alınmalıdır. İqtisadi inkişaf strategiyalarında bir qayda olaraq idxalı əvəzetmə yanaşması neqativ nəticələr də doğurur. Belə ki, bu yanaşma proteksionizm və subsidiyalaşma vasitəsilə rəqabət mühitinə mənfi təsir göstərir. Ancaq hansı sahələrdə ki böyük daxili tələb var və ənənəvi olaraq yerli müəssisələr rəqabətli olublar, idxalı əvəzetmə tətbiq edilə bilər. Təbii ki, daha çox köhnə müəssisələrin modernləşməsi yolu ilə.

### İqtisadi şaxələnməyə hansı faktorlar mane ola bilər?

Görülən tədbirlərə baxmayaraq, iqtisadiyyatın şaxələndirilməsinə mane ola biləcək faktorlar da var. Bunlardan biri də "Holland sindromu"- xammal satışından ölkəyə daxil olan irimiqyaslı xarici valyuta axınları qarşısında yerli valyutanın durmadan bahalaşması və bununla da bir sıra iqtisadi sektorların rəqabət qabiliyyətinin azalması prosesidir.

Bundan başqa, zəif idarəçilik, strateji yanaşmanın olmaması və sosial aktyorların prosesdə zəif iştirakçılığı- ümumi dövlət idarəçiliyində və inkişaf prioritetlərinin seçimində sosial aktorların kənarda qalması hökumətin seçdiyi prioritetlərin reallıqları əks etdirməməsinə, qərar qəbuletmə prosesində qərarların dayanıqsızlığına səbəb olur.

Burada daha bir faktor da var ki, o da texniki problemlərlə bağlıdır. Biznes və investisiya mühitinin problemləri şaxələnməyə mane ola biləcək amillərdir. Biznes subyektlərinin yaradılmasında, qeydiyyatında, mülkiyyət hüquqlarının qorunmasında, idxal və ixrac əməliyyatlarında, rəsmi icazə və lisenziyaların verilməsində, vergi və gömrük orqanları ilə qarşılıqlı münasibətlərdə, kreditlərin alınmasındakı problemləri misal göstərmək olar.

Ümumiyyətlə qeyd etmək lazımdır ki, prezident İlham Əliyevin əsas prioritet elan etdiyi iqtisadi şaxələnmə proqramı olduqca əhəmiyyətlidir. Sadəcə, hökumət strateji konsepsiya üzrə neft-qaz gəlirlərinin müəyyən hissəsini yönəltməklə bu istiqamətdə konkret proqramlar həyata keçirsə, həm sektorial, həm də regional diversifikasiyaya nail ola bilər və qısa zamanda getdikcə azalmaqda olan neft sektorundan asılılığı minimuma endirə, yaxın və orta müddətli dövrdə ölkənin tarazlı və davamlı inkişafını təmin edə bilər.

***Elçin Bayramlı***

Səs
15 oktyabr
2022-ci il

# Açıqlandı: Neymar həbs oluna bilər



Futbol üzrə Braziliyalı millisinin və Fransanın PSJ klubunun futbolçusu Neymar həbs oluna bilər. SİA xəbər verir ki, 30 yaşlı hücumçunun transfer hüquqlarının 40 faizinə sahib olan Braziliyanın DIS şirkəti onun azadlıqdan məhrum olunması üçün məhkəməyə müraciət edib.

İddiaya əsasən, təcrübəli forvard "Barselona" klubunda çıxış edərkən şirkətə çatmalı olan 35 milyon avronu ödəməyib. Vəsait futbolçunun müqaviləsindəki gizli bəndlərə görə şirkətin hesabına köçürülməyib. Qeyd edək ki, Neymar 2013-cü ildə 88 milyon avro təzminat qarşılığında "Santos" klubundan "Barselona"ya keçib.

# Müasir yeniyetmələr necədir?



"Mənə olunan müraciətlərdə tez-tez bu sualı eşidirəm "Bu uşaq necə olacaq?". Sevdiyim bir ifadə var, "Baxarsan dahi olar, baxmazsan cani olar". Təəssüf hissi ilə qeyd edim ki, bəzi valideynlər uşaga baxmaq deyəndə yalnız maddi tərəfləri düşünür, yeniyetmələrə gəldikdə isə əlbəttə ki hər yeniyetmə öz dövrünə bənzəyir". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Leyla Əli deyib. Onun sözlərinə görə, böyüklərdən tez-tez "Bizim dövrümüzdə belə deyildi" ifadəsini eşidirik. Dövr fərqlidir və bugünkü gündə yeniyetmələrin istifadə etdiyi sosial şəbəkələr, baxdıqları filmlər onların psixologiyasına müsbət və mənfi təsirlərini göstərir".

Psixoloq sözlərinə belə davam edib: "15 il əvvəlki yeniyetmə hansısa xarici filmin baş rolundakı qəhrəmana bənzəmək istəyirdisə, indi hansısa "İnstaqram" fenomeninə bənzəmək istəyir. Təəssüf edirəm ki, bəzi hallarda yeniyetmələr mənfi davranışı böyümək, yaxud güclü olmaq sayır. Valideynlərin öhdəsinə düşən ən birinci yeniyetmə övladı düzgün motivasiya etmək və ona özgüvən verməkdir.

Psixoloq olaraq deyə bilmərəm ki, müasir yeniyetmələrlə bağlı vəziyyət çox acınacaqlıdır. Əlbəttə ki, mənfiləri ümumiləşdirmək olmaz. Çünki bu gün kifayət qədər böyük uğurları olan nümunəvi yeniyetmələrimiz var".

***Ayşən Vəli***

# Bakıda ilk dəfə dünyanın ən həyəcanlı yarışı keçiriləcək

***16 oktyabrda Dənizkənarı Bulvar ərazisində dünyanın ən gözlənilən yarışlarından biri olan "Red Bull Car Park Drift"in milli finalı keçiriləcək. Seçiləcək qalib, yəni ən yaxşı drifter, 25 ölkənin qatılacağı "Red Bull Car Park Drift"in Dünya Finalında Azərbaycanı təmsil etmək üçün Səudiyyə Ərəbistanına yola düşəcək. SİA-nın verdiyi məlumata görə, özünəməxsus sərt qaydalarla zəngin olan "Red Bull Car Park Drift" yarışında ən yaxşı şou göstərən 16 nəfər iştirakçı Milli Final mərhələsinə yüksələcək. Burada isə, beynəlxalq münsiflər heyəti maneələri ustalıqla keçən və ən yaxşı şou göstərən iştirakçını maksimum balla qiymətləndirməklə qalib elan edəcək.***




"Red Bull Car Park Drift" yarışının iştirakçıları bu ilin avqut ayında dünyaşöhrətli Livanlı driftçi, 2012-ci ildə Abu-Dabidə ən uzun drift edərək adını Ginnesin Rekordlar Kitabına yazdıran Abdo Feqalidən master klasslar alıb. O həmçinin2008-ci ildə Livanda keçirilən ilk "Red Bull Car Park Drift"yarışının da qalibidir. "Red Bull Car Park Drift" yarışı Azərbaycan Avtomobil Federasiyası, Bakı Şəhər Halqası və AmsOil maşın yağlarıın təşkilatı dəstəyi ilə keçirilir.

Tamaşaçıların əyləncəli vaxt keçirməsi üçün "Fan Zone" ərazisində müxtəlif aktivliklər nəzərdə tutulub. Tədbirə giriş sərbəstdir. Odur ki, bütün sürət həvəskarlarını 16 oktyabr, saat 12:00-da Bakı Kristal Zalın parklama ərazisində gözləyirik.

# Dostunu öldürüb çamadanda gəzdirdi...



Dostunu öldürdükdən sonra başını kəsdiyi iddia edilən qadın cansız cəsədi çamadanda daşıyarkən təhlükəsizlik kameralarına düşüb. SİA-nın xarici mətbuata istinadən verdiyi xəbər görə, 38 yaşlı daşınmaz əmlak agenti Cemma Mişel 67 yaşlı Mee Kuen Çonqun qətlinə görə mühakimə olunur.

Keçən il Devonda başsız cəsədi tapılan Çonqun kəlləsi günlər sonra ərazidə basdırılmış vəziyyətdə tapılıb. Prokurorlar Mişelin Uemblidəki evində Çonqu öldürdüyünü və cəsədi 15 gün sonra Devona apardığını iddia edib. Mişelin qətlə görə mühakimə olunduğu davada yayımlanan təhlükəsizlik kamerası görüntüləri izləyənləri dəhşətə gətirib. Görüntülərdə Mişelin daşıdığı ağır çamadanda Çonqun başsız cəsədinin tapıldığı iddia edilib.

Mitşelin qətlə görə mühakimə olunduğu davada yayımlanan təhlükəsizlik kamerası görüntüləri izləyənləri dəhşətə gətirib. Görüntülərdə Mişelin daşıdığı ağır çamadanda Çonqun başsız cəsədinin tapıldığı iddia edilib. Mitşelin qətlə görə mühakimə olunduğu davada yayımlanan təhlükəsizlik kamerası görüntüləri izləyənləri dəhşətə gətirib. Görüntülərdə Miçelin daşıdığı ağır çamadanda Çonqun başsız cəsədinin tapıldığı iddia edilib. Uemblidəki evində Çonqu öldürdüyünü və cəsədini 15 gün sonra Devona apardığını iddia edib.

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,**
**Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**